
6

## Rusiya - Qərb
qarşıdurmasının bölgəmiz üçün
TƏHLÜKƏSİ VARMI?


12

## Fransa seçkiləri:
Makronun qələbəsi
Avropaya nə vəd edir?

# "Zərifə Əliyeva"
gəmi-bərəsi istismara verilib



SƏS
№ 075 (6516) 29 aprel 2022-ci il. Qiyməti 60 qəpik



2

# Alternativ enerji erası başlayır: biz hazırıqmı?


6

Dünyada enerjiyə tələbat artdıqca vəziyyət gərginləşir. Beynəlxalq Enerji Agentliyinin dünyada enerji istifadəsinə dair statistikasına görə, 2030-cu ilədək dünyada enerjiyə olan tələbat 53% artacaq. Sürətli istismar nəticəsində dünyada neft, qaz, kömür və s. bu kimi ənənəvi enerji ehtiyatları tükənmək üzrədir. Hətta bunun 2050-ci ilədək baş verəcəyi haqda ciddi elmi proqnozlar var. Mütəxəssisin qənaətincə, bu kimi proqnozlar yaxın gələcəkdə ənənəvi enerji mənbələrinə təzyiqin necə artacağını və resursların kifayət...

Tahir Budaqov:
**"Akademik Zərifə xanım Əliyeva tibb elminin inkişafına misilsiz töhfələr verib"**


3

## "Azərbaycan öz tərəfindən sülh müqaviləsini imzalamağa hazırdır"



3

# "Barselona"nın Levandovski planı açıqlandı!



"Barselona"nın direktoru Mateu Alemani "Bavariya"nın futbolçusu Robert Levandovskinin meneceri ilə görüşüb. Bu barədə sport.es məlumat yayıb. Alemani Levandovskinin...

16


11

# Kişilər boşandıqları qadınları niyə öldürür?

## Pensiyası az olanların NƏZƏRİNƏ:
Əlavə müavinət təyin olunacaq


14

Sosial şəbəkədə Şuşadan boy-boy fotolar paylaşan, guya Şuşa səfərindən "vəcdə" gəldiyini süni təbəssümü ilə zorla ictimai rəyə sırıyan müsavatçı...



14

## Nə tez "vicdana" gəldin, Arif Hacılı, bəs Əli Kərimli hanı?

# “Zərifə Əliyeva” gəmi-bərəsi istismara verilib

## *Prezident İlham Əliyev mərasimdə iştirak edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan ”Ro-Pax” tipli ”Zərifə Əliyeva” gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak edib.***

AZƏRTAC xəbər verir ki, ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına ”Zərifə Əliyeva” gəmi-bərəsi barədə məlumat verdi.

Bildirildi ki, gəmi-bərənin layihəsi ötən ilin əvvəlində istismara verilən ”Ro-Pax” tipli ”Azərbaycan” gəmi-bərəsi ilə eynidir. Otuz nəfərlik heyət üzvünün idarə etdiyi gəmi-bərə ilə eyni vaxtda 100 sərnişin, sistern tipli 56 vaqon və ya 50 yük avtomobili/TIR daşımaq mümkündür. ”Azərbaycan” və ”Zərifə Əliyeva” gəmi-bərələri bu göstəricilərinə görə Xəzər hövzəsində istismar olunan digər gəmi-bərələrdən daha üstündür. Dünyanın aparıcı istehsalçılarının müasir avadanlıqları ilə təchiz olunan gəmidə yük lifti, helikopter meydançası, dalğalı havada gəminin sabitləşdirilməsi sistemi, dartıcı lokomotivlər vardır.

Prezident İlham Əliyev gəmi-bərənin istismara verilməsini bildirən rəmzi lenti kəsdi.

Xatırladaq ki, ötən ilin martında Süveyş kanalının bağlanması nəqliyyat dəhlizlərinin şaxələndirilməsi məsələsini beynəlxalq gündəlikdə önə çıxarmışdı. Hazırkı geosiyasi təlatümlər fonunda isə bu məsələ aktuallığını xüsusilə artırıb. Buna görə də Şərq-Qərb-Transxəzər dəhlizi xüsusilə cəlbedici görünür və Azərbaycan da yeni çağırışlara adekvat olaraq infrastrukturunu yaxşılaşdırır.




Gəmi-bərənin ”Zərifə Əliyeva” adlandırılması Azərbaycan dənizçilərinin görkəmli alim və həkim, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın xatirəsinə olan sonsuz ehtiramının ifadəsidir. Gəmi-bərədə akademik Zərifə Əliyevanın elmi axtarışlarını, qazandığı uğurları, insanlara xeyirxah münasibətini, bir sözlə, fədakarlıqla dolu həyat və fəaliyyətini əks etdirən guşə yaradılıb. Guşədə akademik M.İ.Averbax adına mükafatın ilk qadın laureatı olan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əliyeva haqqında foto və video məlumatlar, kitablar toplanıb.











Gəmi-bərə ilə tanış olan Prezident İlham Əliyev daha sonra onun işə salınmasını bildirən düyməni basdı.

Qeyd edək ki, ”Zərifə Əliyeva” gəmi-bərəsi Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin mühüm həlqəsi olan ASCO-nun digər bərələri ilə birgə yükdaşımalara, eləcə də əlverişli coğrafi mövqeyə malik ölkəmizin tranzit potensialının reallaşdırılmasına mühüm töhfə verəcək. Dünya standartlarına cavab verən belə bir bərənin Azərbaycanda inşa olunması bir tərəfdən dövlətimizin qüdrətini, iqtisadi müstəqilliyini nümayiş etdirirsə, digər tərəfdən onu göstərir ki, ölkəmiz böyük sənaye potensialına və yüksək texnologiyalara əsaslanan iqtisadiyyatın yeni inkişaf mərhələsində uğurla addımlayır.

Pandemiyanın qlobal iqtisadiyyatda yaratdığı tənəzzülə baxmayaraq Azərbaycan iqtisadi inkişafını, o cümlədən beynəlxalq nəqliyyat dəhlizlərində artan roluna uyğun olaraq uğurla həyata keçirilən infrastruktur layihələrini davam etdirir. Təsadüfi deyil ki, bu gün ölkəmiz istər Şərq-Qərb, istər Şimal-Cənub dəhlizlərinin mühüm ”hab”ına çevrilib. Prezident İlham Əliyevin nəqliyyatın, o cümlədən gəmiçiliyin inkişafına xüsusi diqqəti də Azərbaycanın bu sahədə potensialını tam olaraq gücləndirməyə hesablanıb.

Bu gün ASCO-nun donanmasında 13 bərə gəmisi, ”Ro-Ro” tipli 2 gəmi və ”Ro-Pax” tipli 1 gəmi fəaliyyət göstərir. Hazırda ASCO dəmir yolu vaqonlarının dəniz vasitəsilə daşınmasını təmin edən Xəzərdə yeganə bərə operatorudur. Qeyd olunan donanma həm vaqon, həm də avtomobil yükləri üçün Xəzər dənizində körpü rolunu oynayır və bu imkandan Transxəzər dəhlizi üzrə yükdaşımaları həyata keçirən bütün istifadəçilər yararlanırlar.

Azərbaycanın gəmiçilik sahəsində mühüm nailiyyətlərindən biri də geniş potensiala malik və regionun ən müasir müəssisələrindən sayılan Bakı gəmiqayırma zavodunun 2013-cü ildə istifadəyə verilməsidir. Bu zavodun istismara verilməsi ölkəmizdə yeni gəmilərin alınması istiqamətində idxaldan asılılığı aradan qaldırıb. Azərbaycanda belə bir zavodun yaradılması Xəzər dənizinin spesifik xüsusiyyətlərini və bu hövzədə mövcud liman infrastrukturlarının texniki imkanlarını nəzərə almaqla, nadir layihələr və yeni konsepsiyalar əsasında bütün növ gəmilərin tikintisinə imkan verir. ”Ro-Pax” tipli gəmilər də bu qəbildəndir. Ən yüksək standartlara uyğun gəmi-bərələrin istehsalı Azərbaycan dövlətinin istər iqtisadi, istərsə də sənaye və texnologiyalar sahələrində gücünün göstəricisidir. Hazırda zavodda ASCO-nun donanması üçün daha 2 tankerin inşası davam etdirilir.

Onu da deyək ki, ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin 2014-cü ildə qəbul olunmuş Strateji İnkişaf Planının icrası çərçivəsində ötən müddətdə ümumilikdə 24 gəmi istismara verilib. Azərbaycan gəmiləri Xəzərdən kənarda - Qara dəniz və Aralıq dənizi hövzələrində də fəaliyyət göstərir. Burada ASCO-nun 7-si quru yük gəmisi və 6-sı tanker olmaqla 13 gəmisi istismar edilir. Həmin hövzələrdə Azərbaycan bayrağı altında üzərək ölkəmizi xarici sularda təmsil edən gəmilərin heyəti bütünlüklə azərbaycanlı dənizçilərdən təşkil olunub.





# NATO regionda Azərbaycanla əməkdaşlığa böyük önəm verir

*Prezident İlham Əliyev NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolominanı qəbul edib. Xavyer Kolomina NATO-nun Baş katibi Yens Stoltenberqin salamlarını dövlətimizin başçısına çatdırıb.***

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Yens Stoltenberqə çatdırmağı xahiş edib. Görüşdə dövlətimizin başçısının ötən ilin sonunda NATO-nun mənzil-qərargahına səfəri və səfər çərçivəsində Baş katiblə görüşü, həmçinin Şimali Atlantika Şurasının iclasında çıxışı xatırlanıb. Eyni zamanda, NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək missiyasında ölkəmizin iştirakı qeyd edilib.

Söhbət zamanı postmünaqişə dövründə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi, enerji təhlükəsizliyi, regional təhlükəsizlik ilə bağlı məsələlər və Azərbaycan-NATO əməkdaşlığının perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.




# "Azərbaycan öz tərəfindən sülh müqaviləsini imzalamağa hazırdır"

**ATƏT Minsk qrupunun işi Ermənistanla münaqişənin sülh yolu tənzimlənməsində heç bir nəticə vermədi. Trend-in məlumatına görə, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Şuşada "Cənubi Qafqazda inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans zamanı deyib.**

Onun sözlərinə görə, 30 il Minsk qrupu çərçivəsində gedən danışıqlar Cənubi Qafqazda sülhə gətirib çıxarmadı. "Azərbaycan hər zaman sülh tənzimlənməsinə can atıb və tarixin bu səhifəsini çevirmək istəyir", - deyə o bildirib.

H.Hacıyev daha sonra bildirib ki, Azərbaycan Şuşa şəhərinin azad edilməsi üçün ağır silahlardan istifadə etməyib. "Biz Şuşa şəhərinin azad edilməsi üçün ağır silahlardan istifadə etməmişik, çünki biz şəhərin mədəni, tarixi əhəmiyyətini çox yüksək qiymətləndiririk", - deyə o bildirib. Onun sözlərinə görə, Şuşa azərbaycanlıların qəlbində xüsusi yer tutur. Natiq qeyd edib ki, Azərbaycanla Ermənistan arasında sülh sazişi Cənubi Qafqazda inteqrasiyanın inkişafına xidmət edəcək. "Azərbaycan öz tərəfindən sülh müqaviləsini imzalamağa hazırdır. Üç onillik boyunca davam etmiş danışıqlar prosesi bunu göstərir", - deyə o bildirib. H.Hacıyev qeyd edib ki, Ermənistan hələ də ölkənin xeyrinə olacaq addımları atmağa çalışmır.

O əlavə edib ki, nəqliyyat, ticarət, energetika kimi müxtəlif sektorların birgə inkişafı Azərbaycan, Ermənistan və bütünlükdə region üçün sosial-iqtisadi fayda gətirəcək.

## Tahir Budaqov:
# "Akademik Zərifə xanım Əliyeva tibb elminin inkişafına misilsiz töhfələr verib"



"Bu gün ümummilli liderimiz Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın anadan olmasının 99-cu ildönümü qeyd olunur. Bu əlamətdar hadisə münasibətilə Yeni Azərbaycan Partiyasının Mərkəzi Qərargahında Zərifə xanım Əliyevanın mənalı, zəngin həyat və fəaliyyətinə həsr olunmuş konfrans təşkil olunub". Bu fikirləri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.

Tahir Budaqov bildirib ki, konfransda Zərifə xanım Əliyevanın fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə çox maraqlı məruzələr dinlənilib. Onun sözlərinə görə, biz Zərifə xanımın həyat və fəaliyyətinə nəzər saldıqda əldə etdiyi nailiyyətləri, xalqa göstərdiyi xidmətləri xüsusi qeyd etməliyik. Eyni zamanda, Zərifə xanım vəfalı həyat yoldaşı və qayğıkeş ana kimi də ailəsinə çox bağlı olub.

"Ulu öndərimiz Heydər Əliyevin çoxşaxəli fəaliyyəti zamanı Zərifə xanım Əliyeva hər zaman Ümummilli Liderimizə dəstək olub. Eyni zamanda, Zərifə xanım bu gün respublikamıza rəhbərlik edən Prezident cənab İlham Əliyevin anası kimi onun tərbiyə olunmasında, milli mənəvi-əxlaqi dəyərlərin əxz olunmasında müstəsna xidmətləri olub. Bununla yanaşı Zərifə xanım böyük alim kimi səhiyyə və elm sahəsində misilsiz xidmətlər göstərib. Zərifə xanım Əliyevanın bir sıra elmi araşdırmaları keçmiş SSRİ miqyasında da tanınıb və bir sıra ali mükafatlara layiq görülüb. Onun elmi araşdırmaları və səhiyyə sisteminə verdiyi töhfələr bu gün də öz aktuallığını qoruyub saxlayır", - deyə YAP Sədrinin müavini vurğulayıb.

## İsveçli fotoqraf:
# "Şuşaya səfərimin məqsədi Azərbaycan tarixi barədə Avropa ictimaiyyətini ətraflı məlumatlandırmaqdır"




Şuşa şəhərinə səfər etməyimin əsas məqsədi bu şəhərin təkcə Azərbaycanın deyil, həmçinin türk dünyasının mühüm mədəniyyət mərkəzi olduğunu bütün Avropa ölkələrinə və dünyaya çatdırmaqdır. AZƏRTAC xəbər verir ki, bu fikirləri isveçli fotoqraf, sənədli filmlər üzrə rejissor Mikael Silkeberq deyib. O qeyd edib ki, Azərbaycanın ecazkar muğamının müasir Avropa caz musiqisi ilə oxşarlıqları var və bu sintez haqqında avropalılara məlumat vermək lazımdır.

"Həmçinin mənim məqsədim buradakı bir neçə aktyorun iştirakı ilə Vaqif və Bülbül obrazlarını yaratmaqdır. Onlar vasitəsilə bu şəxsiyyətlər haqqında, həmçinin Azərbaycanın mədəniyyəti və tarixi barədə Avropa ictimaiyyətinə daha ətraflı məlumat vermək istəyirəm", - deyə rejissor qeyd edib.

# "Nurlu ömrün işığı"

## YAP-ın Mərkəzi Qərargahında akademik Zərifə xanım Əliyevaya həsr edilmiş konfrans keçirilib

**Aprelin 28-də Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümünə həsr edilmiş "Nurlu ömrün işığı" adlı konfrans keçirilib.**

Konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycanın qurucusu, ümummilli liderimiz Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət





edib, önünə gül dəstələri düzüblər.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Qərargahında keçirilən konfransda öncə ulu öndər Heydər Əliyevin, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, torpaqlarımızın müdafiəsi və azad edilməsi uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətinə həsr edilmiş film nümayiş olunub.

Konfransda giriş nitqi ilə çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Zərifə xanım Əliyevanın zəngin, şərəfli ömür yolu bugünkü və gələcək nəsillər üçün parlaq nümunədir. O, həm peşəkar həkim-mütəxəssis, həm ləyaqətli ziyalı, həm vəfalı ömür-gün yoldaşı, həm də qayğıkeş ana kimi Azərbaycan tarixində silinməz izlər buraxmışdır. Zərifə xanımın



sədaqət andını gerçəkləşdirərək Azərbaycana tarixi nailiyyətlər qazandırıb, ölkəmizin adını qalib və qüdrətli dövlətlər sırasına yazdırıb. Bir sözlə, cənab İlham Əliyev tarix yazıb və adını tarixə əbədi yazdırıb - həkk etdirib. Əlbəttə, övladının yüksək məqama çatması, Vətən, xalq üçün faydalı işlər görməsi hər bir valideynin ülvi məqsədi və arzusudur. İlham Əliyev isə arzuları gerçəkləşdirib. Ona görə də həm ulu öndər Heydər Əliyevin, həm də Zərifə xanım Əliyevanın ruhu şaddır.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları çoxdur. Amma ən böyük mükafat, ən üstün dəyər xalqın ona sevgisi, düşüncələrdə və qəlblərdə silinməz yeri, əziz xatirəsidir. Azərbaycan qadınlarına məxsus ləyaqətli, şərəfli bir ömür yaşamış Zərifə xanım Əliyevanın işıqlı obrazı həmişə bizimlə olacaq, əziz xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq!

Konfransda Azərbaycan Respublikasının





çoxşaxəli fəaliyyəti ictimai əhəmiyyətli və faydalı olub. O, həm insanlara nur və şəfa bəxş edib, həm savadlı, peşəkar mütəxəssislərin yetişməsində fəal rol oynayıb, həm də gənc nəslin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi üçün örnək yaradıb. Yeni, Zərifə xanım Əliyevanın fərdi və ictimai portreti rəngarəng, həyat yolu mənalı və nümunəvidir. Zərifə xanım Əliyevanın zəngin irsindən bəhs edərkən, ilk növbədə, oftalmologiya elminə müstəsna töhfələrinə xüsusi diqqət yetirmək lazımdır. Onun apardığı tədqiqatlar Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir.

Qeyd edilib ki, Azərbaycanda traxomanın xəstəlik kimi ləğv edilməsi Zərifə xanım Əliyevanın adı ilə bağlıdır. Görkəmli alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub. O, həmçinin oftalmologiyanın aktual problemlərinə həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb. Oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə akademik Zərifə xanım Əliyeva keçmiş ittifaqın oftalmologiya sahəsində ən böyük mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Zərifə xanım Əliyeva həmin mükafata layiq görülən ilk qadın alim idi. 150-dən artıq elmi əsərin müəllifi olan akademik çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərinə görə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. Bunlarla yanaşı, görkəmli alim SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışıb. O, respublika "Bilik" Cəmiyyəti İdarə Heyətinin və keçmiş ittifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü, o cümlədən "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olub. Bu, Zərifə xanımın ictimai fəaliyyətinin də cəmiyyətimiz və respublikamız üçün faydalı, səmərəli olduğunu göstərir.

Tahir Budaqovun sözlərinə görə, Zərifə xanım Əliyeva Vətən üçün - Azərbaycan naminə misilsiz işlər görüb. Vəfalı ömür-gün yoldaşı, qayğıkeş ana kimi də bu missiyasını ləyaqətlə yerinə yetirib. Zərifə xanım ümummilli lider Heydər Əliyevlə ailə məsuliyyətini paylaşaraq cənab İlham Əliyev kimi övlad yetişdirib. Heydər Əliyev və Zərifə Əliyeva məktəbindən dərs alan Prezident İlham Əliyev ata vəsiyyəti ilə yanaşı, xalqa, dövlətə, Vətənə

səhiyyə naziri Teymur Musayev "Zərifə xanım Əliyevanın zəngin elmi irsi Azərbaycan tibb elminin parlaq səhifəsidir" mövzusunda çıxış edib. O bildirib ki, tarixdə elə şəxsiyyətlər var ki, onların fitri istedadı, nadir biliyi və peşəkar bacarıqları, eyni zamanda insani keyfiyyətləri, qayğıkeşliyi və nəcibliyi gələcək nəsillər üçün nümunə və örnəkdir. Bu gün anadan olmasının 99-cu ildönümü geniş şəkildə qeyd edilən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva özündə belə yüksək dəyərləri cəmləşdirən şəxsiyyətlərdən biri idi. Nazirin sözlərinə görə, Azərbaycanın görkəmli ictimai və dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım çox zəngin və mənalı ömür yolu keçib.

*Ardı Səh. 5*

Əvvəli Səh. 4

# "Nurlu ömrün işığı"

## YAP-ın Mərkəzi Qərargahında akademik Zərifə xanım Əliyevaya həsr edilmiş konfrans keçirilib

"Müasirləri tərəfindən "Cəmiyyətin təbibi" adlandırılan Əziz Əliyevin ömür yolu onun üçün əsl həyat məktəbi olub. Humanist və alicənab bir xanım, səmimi insan, nümunəvi həyat yoldaşı olan Zərifə xanımın ömür yolu bugünkü qadınlar üçün əsl örnəkdir. Onun insanlara məhəbbəti qeyri-adi dərəcədə idi. Neçə-neçə insanın gözünə işıq verən, onları həyata qaytaran görkəmli oftalmoloq həmişə xüsusi qayğıya ehtiyacı olan tənha insanlara və kimsəsizlərə böyük diqqətlə yanaşırdı. Zərifə xanım elə insan idi ki, bir dəfə ünsiyyətdə olanlar onu ömrü boyu unuda bilmirdilər. Bu böyük şəxsiyyət elə ilk andan onunla ünsiyyətdə olanların yaddaşında yüksək vətəndaşlıq, humanizm və ürək saflığının mücəssəməsi kimi əbədi qalırdı. Zərifə xanım sevib-seçdiyi, ömrünü həsr etdiyi sənəti ilə bu istedadını tam gerçəkləşdirə bilirdi. "İnsan biliyi ilə mütləq cəmiyyətə fayda verməli, xeyirxah əməlləri ilə özündən sonra iz qoymalıdır", - deyən Zərifə xanım üçün xeyirxahlıq hər zaman həyat tərzi olub", - deyə nazir bildirib.

Vurğulanıb ki, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan, elmin bu sahəsinin inkişafına dəyərli töhfələr verən akademik Zərifə Əliyevanın həyat fəlsəfəsi çoxşaxəli və zəngindir. Azərbaycan Dövlət Tibb Universitetini bitirəndən sonra Moskvada Həkimləri Təkmilləşdirmə İnstitutunda təhsil alan, sıravi həkimlikdən akademik zirvəsinə ucalan Zərifə Əliyevanın elmi araşdırmaları, alim kimi qazandığı böyük uğurlar Azərbaycanın tibb elmi




tarixində xüsusi yer tutur. Zərifə xanımın beynəlxalq konfrans və simpoziumlarda alimlərin müzakirə mövzusuna çevrilən elmi nailiyyətləri Azərbaycan səhiyyəsinin dünyada daha geniş tanınmasına imkan verib. "Elm nurdur, lakin göz olmasa, nur da yoxdur", - deyən Zərifə xanım, ilk növbədə, həkim idi, bu peşəni çox yüksək dəyərləndirirdi.

"Zərifə Əliyeva ətrafına nur saçan böyük ziyalı idi. Bütün həyatı boyu ona pənah gətirənlə-



rin gözlərinə şəfa verən Zərifə xanım malyariya və traxomaya qarşı fədakarlıqla mübarizə aparan pedaqoq-alim, professor Əziz Əliyevin yolunu özünə örnək götürərək, oftalmologiya elminə böyük töhfələr verib", - deyən T.Musayev diqqətə çatdırıb ki, görkəmli elm xadiminin fəaliyyətinin əsas istiqamətlərindən biri də peşə oftalmologiyası idi. Oftalmologiyada peşə xəstəliklərinin yaranma səbəblərinin tədqiqi akade-



mik Zərifə Əliyevanın adı ilə bağlıdır.

"Zərifə xanımın insani keyfiyyətləri onun elmi və peşə fəaliyyətindən heç də az dəyərli deyil. Alicənablıq, sadəlik, nur, nəciblik, qayğıkeşlik, ailəsinə bağlılıq onu ən gözəl səciyyələndirən sözlərdir. Təsadüfi deyil ki, ölkəmizin bugünkü sürətli inkişafını, beynəlxalq nüfuzunu, möhtəşəm uğurlarını təmin edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, dövlətimizin ərazi bütövlüyünü bərpa edən Müzəffər Ali Baş Komandan məhz belə bir ailədə dünyaya gəlib, formalaşıb. Azərbaycan Prezi-




dentinin bilik və bacarığının, qətiyyət və müdrikliyinin təməlində ulu öndər Heydər Əliyevlə yanaşı, sözsüz ki, Zərifə xanımın da təsiri var. Zərifə xanım kimi müdrik bir insanın ocağının hər bir üzvünə onun nurundan pay düşüb. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva ehtiyacı olanların pənah yeri kimi tanınır, insanlara qayğısı ilə hər kəsin sevgisini qazanıb. Ölkəmizdə hazırda səhiyyə sahəsində əldə olunan nailiyyətlərdə, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafında onun böyük zəhməti var", - deyə səhiyyə naziri vurğulayıb.

"Akademik Zərifə Əliyeva - xeyirxahlıq və humanizm mücəssəməsi" mövzusunda çıxış edən YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və




Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Azərbaycan xalqının adını və əməllərini çox böyük ehtiramla xatırladığı oğul və qızları içərisində parlaq şəxsiyyət, akademik Zərifə Əliyevanın özünəməxsus



yeri var. O, şərəfli həyat yolu, insani keyfiyyətləri ilə yanaşı, ictimai mövqeyi ilə də təkcə yaddaşlarda deyil, həm də insanların taleyində oynadığı əhəmiyyətli roluna görə qəlblərdə və xatirələrdə yaşamaqdadır. Təsadüfi deyil ki, Zərifə xanımı şəxsən tanıyanlar onun milli-mənəvi dəyərlərə bağlılığı və müasirliyindən fəxrlə söhbət açır, insanpərvərliyi, sadəliyi və təvazökarlığından ağız dolusu danışırlar.

Komitə sədrinin sözlərinə görə, Zərifə Əliyevanın əsl elm fədaisi, görkəmli tədqiqatçı-alim kimi akademik dairələrdə böyük nüfuz və hörmətə malik olduğu barədə elmi və ictimai mənbələrdə kifayət qədər rəy və mövqe mövcuddur. Gözəl ana, qayğıkeş həyat yoldaşı kimi dəyəri isə ulu öndər Heydər Əliyevin, ölkə Prezidenti cənab İlham Əliyevin kövrək xatirələrində əksini tapır.

B.Muradova qeyd edib ki, Zərifə xanım Əliyeva bütün şəraitlərdə nəciblik, mərhəmət, sədaqət və fədakarlıq kimi keyfiyyətləri öz simasında birləşdirməyi bacaran bir insan kimi xatırlanmaqdadır. Onun sözlərinə görə, Zərifə xanımı tanıyan, onunla ünsiyyətdə olan, birgə fəaliyyət göstərən, himayəsini və qayğısını öz üzərində hiss edənlər bu gün onu böyük sevgi və hörmətlə anırlar. "Bu gün Zərifə xanım seçdiyi fəaliyyət istiqamətləri üzrə əldə etdiyi nəticələrə, yaratdığı ənənələrə, qoyub getdiyi elmi, ictimai irsə və şəxsiyyəti haqqında dolaşan əfsanələrə bənzər həqiqətləri ilə ölkəmizin tarixində



ən parlaq səhifələrdədir. Zənnimcə, bütün parametrlər üzrə xarakteri və onun məzmunu ilə əsl Azərbaycan xanımı obrazını, müdrikliyi və mükəmməlliyi ilə özü öz boyuna biçmiş bu gözəl insanı müasir və gələcək nəsillər hər zaman yüksək ehtiram və minnətdarlıq hissi ilə xatırlayacaqlar. Bir də ona görə ki, o, özünün çox da uzun olmayan həyatı boyu iki titulun əbədi daşıyıcısı olaraq qalacaq. Əvvəla, o, müstəqil Azərbaycan dövlətinin banisi, ümummilli lideri-



miz Heydər Əliyevin həyat yoldaşı, həmçinin müasir, qüdrətli və zəngin Azərbaycan dövlətinin qurucu lideri, Müzəffər Ali Baş Komandan, Prezidentimiz İlham Əliyevin anasıdır", - deyə komitə sədri əlavə edib.

Konfransda Milli Məclisin Səhiyyə komitəsinin sədri, AMEA-nın həqiqi üzvü Əhliman Əmiraslanov "Dünya şöhrətli alim, görkəmli oftalmoloq" mövzusunda çıxış edərək bildirib ki, Zərifə Əliyevanın özünə ixtisas kimi məhz göz həkimliyini seçməsi təsadüfi deyildi. "1940-cı illərin sonu -1950-ci illərin əvvəllərində bütün dünyada, o cümlədən Azərbaycanda traxoma xəstəliyi geniş yayılmışdı. Problemin miqyası haqqında təsəvvür yaratmaq üçün Ümumdünya Səhiyyə Təşkilatının həmin dövr üçün bir hesabatına diqqət yetirək: Hesabatda bütün dünyada 400 milyona qədər insanın traxoma xəstəliyinə tutulduğu, bunun nəticəsində 80 milyondan çox insanın korluğa düçar olduğu bildirilirdi. Bu xəstəlik xüsusilə Azərbaycanın bölgələrində tüğyan edirdi. Belə bir zamanda Zərifə xanım Əliyeva məhz oftalmologiyanı seçdi. Akademik Zərifə Əliyeva böyük elmi məktəb yaratmış alimlərimizdən idi. Onun fədakar zəhməti sayəsində ərsəyə gəlmiş dərs vəsaitləri, dərsliklər, monoqrafiyalar bu gün də təkcə Azərbaycanda deyil, ümumən dünyada oftalmologiya elminin inkişafına xidmət edir, ixtisaslı gənc həkimlərin və bu sahədə tədqiqatlar aparan alimlərin yetişməsinə kömək göstərir. "Kəskin virus konyunktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" və bu kimi digər əsərləri Zərifə xanımın tibb elminə sanballı töhfələridir. Zərifə xanım tibb elminin nadir sahələrindən olan iridodiaqnostika və iridoterapiya problemlərinə də diqqət yönəltmişdi. Onun bu mövzuda iki monoqrafiyası çapdan çıxıb. Bunlar "İridodiaqnostikanın əsasları" və "İridodiaqnostika" monoqrafiyalarıdır. Onu da xüsusi qeyd edək ki, dünya miqyasında iridodiaqnostikaya dair ilk kitablar məhz akademik Zərifə Əliyevaya məxsusdur", - deyə akademik bildirib.

Ə.Əmiraslanovun sözlərinə görə, həkimlik




etikası da Zərifə xanım Əliyevanı daim maraqlandıran əsas məsələlərdən idi. Çünki o, özü həkimlik sənətini bu peşənin yüksək etikası işığında sevmişdi. Onun üçün əsl həkimlik meyarı atası Əziz Əliyevin bütöv şəxsiyyəti idi. Zərifə xanım insan sağlamlığını ictimai sərvət, insanların gözlərinə nur bəxş olunmasını bəşəri humanizm kimi səciyyələndirirdi. O, belə bir ali dəyəri gənc həkimlərə də ötürməyə çalışırdı. Onların mənəvi tərbiyəsi, həkimlərin peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsi və



həlli üçün əməyini əsirgəmirdi. Zərifə xanımın bir çox məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuşdu. Alimin "Yüksək etimad" kitabı isə bu gün də "Hippokrat andı"na sadiq qalan, özünü əsl tibb işçisi kimi yetişdirmək istəyən həkimlərin stolüstü kitabıdır.

Konfransın sonunda Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il 1 fevral tarixli Sərəncamına əsasən, ölkəmizin ictimai və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunan Zərifə Salahovaya "Şərəf" ordeni, 2022-ci il 7 mart tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-mədəni həyatında səmərəli fəaliyyətinə görə və 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təltif edilmiş bir qrup xanıma isə "Tərəqqi" medalı təqdim olunub.

# Rusiya - Qərb qarşıdurmasının bölgəmiz üçün TƏHLÜKƏSİ VARMI?



***Dəfələrlə Rusiya tərəfi Ukraynaya qarşı müharibəyə hazırlaşmadığını, Rusiyanın müharibə planının olmadığını, savaşın olmayacağını bəyan etsə də, bütün dünya bunun əksini müşahidə etdi. Rusiya hakimiyyətinin ən yüksək ranqlıları öz ifadələrində dəfələrlə təsdiq etmişdilər ki, Ukrayna ilə heç bir qarşıdurma ola bilməz, yayılan xəbərlər dezinformasiyadır, lakin indi onlar müharibə ilə, döyüşlə bağlı müxtəlif şərhlər verirlər.***

Ukraynanın hərbi hazırlığı, Qərbin dəstəyi, əvvəlcədən Ukraynanı döyüşə, müharibəyə hazırlaması təsdiq edir ki, Rusiya tərəfinin təkziblərinə baxmayaraq, Qərb, xüsusilə ABŞ müharibənin olacağı barədə dəqiq informasiyaya malik imiş, araşdırmaları da doğru imiş və əvvəlcədən hazırlıqlı olmağın nəticələri də sübut edir ki, bunun, bu informasiyaların, araşdırmaların nə qədər vacib olduğu təkzib edilə bilməz. Deməli, öncədən məlumatlı, tədbirli olmaq çox böyük əhəmiyyət kəsb edir və bu baxımdan bizim üçün də maraqlı məqam ondan ibarətdir ki, görəsən Rusiya ilə Qərbin qarşıdurması bölgəmiz üçün təhdid yaradırmı?

Xatırladaq ki, hələ Rusiyanın Ukrayna ilə müharibəyə başladığı ilk günlərdə həmçinin dondurulmuş münaqişələrin yerləşdiyi ərazilərdə Moskvanın hərbi ekspansiya siyasəti aparacağına dair ehtimallar yaranmışdı. Getgedə bu ehtimalların doğrulacağı barədə şübhələr yoxa çıxmağa başlayır. Artıq Moldova öz ərazisi olan Dnestryanı regionu ilə təhdid olunur və çox güman ki, qondarma Dnestryanı respublikasında baş verən partlayış da qlobal çəkişmənin növbəti elementidir. Sözsüz ki, bunun ağırlığı hər mənada, gücü zəif, ümumilikdə resursları az olan Moldovanın üzərinə çökmək üzrədir və oradakı narahatlıqlar da bu baxımdan anlaşılandır.

Təbii ki, Moldova ilə bağlı bu məsələdə Qərbin maraqları təkzib edilə bilməz. Əvvələ ona görə ki, Qərb bu dəfə də Rusiyanı yeni oyunlara, qarşıdurmalara təhrik etməklə zəifləmləkdə maraqlıdır və qarşısında tamamilə zəifləmiş, məhdud imkanlara sahib Rusiyanı görmək istəyi var. Digər tərəfdən də Rusiyanın hərbi kantingentinin bir hissəsinin ayrılması, Ukraynadakı qarşıdurma zamanı rusların məğlubiyyəti Qərb üçün ən böyük arzudur desək, yanılmarıq. Əlbəttə ki, Rusiya da bu məsələdə maraqlarını güdür və ruslar da elə hesab edirlər ki, Avropaya qarşı cəbhəni gücləndirmək istiqamətində bununla müəyyən imkanlar əldə edə bilərlər. Heç şübhəsiz ki, Rusiyanın Qərbə qarşı, Qərbin də Moskvanın mümkün ssenarilərinə qarşı əks-planlarının olduğu inkar edilə bilməz, amma hər bir halda Ukraynanın ardınca, bəlkə də elə paralel olaraq hansısa ərazilərdə müharibə başlaya bilər. Ən azından haralardasa müharibə təhdidinin olması ehtimalı qəbuledilməndir və maraqlıdır, Rusiya ilə Qərb arasında yaranan qarşıdurça bölgəmiz üçün təhdid yaradırmı?

İlk növbədə onu nəzərə almaq lazımdır ki, böyük güclərin bölgəmizlə, Azərbaycanla bağlı geosiyasi maraqları var və bunu təkzib etmək doğru olmaz. Hər mənada bölgəmiz maraqların toqquşduğu bir məkandır. Brüssel görüşü və onun ardınca da təcili şəkildə Moskva görüşünün təşkili təsdiq etdi ki, istər Qərb, istərsə də Rusiya Cənubi Qafqazda gedən proseslərə maraq göstərir və bu da əbəs yerə deyil. Hər iki qütb bölgədə nəzarət məsələsi ilə bağlı hansısa mövqeyə sahib olmağa can atır və proseslərə nəzarət etmək hər biri üçün maraqlıdır. Bir sözlə, hər iki tərəf ən azından proseslərdən kənarda qalmaq istəmir və bu məsələdə Rusiya daha çox canfəşanlıq edir.

Onu da nəzərdən qaçırmaq lazım deyil ki, Azərbaycanla münasibətlərin qorunub saxlanması, əməkdaşlıqların genişləndirilməsi, daha yaxşı münasibətlər qurulmasında Qərb də, Rusiya da maraqlı olduqlarını gizlətmirlər. Münasibətlərin müttəfiqlik səviyyəsinə çatdırılması üçün göstərilən səylər də göz önündədir. Xüsusilə, bu ilin birinci rübündə Moskva Bəyannaməsinin imzalanması deyilənləri təsdiq edir və sübut edir ki, həqiqətən də Rusiya Azərbaycanla müttəfiq münasibətlər qurmaqda maraqlıdır. Qərb də öz növbəsində münasibətlərin yaxşılaşdırılmasına töhvələr verməyə çalışır və bunun da biz Brüsseldə gedən proseslərdə şahidi olduq. Daha dəqiq desək, illər boyu, 30 ilə yaxın müddətdə münaqişənin həllinə deyil, uzadılmasına çalışan ATƏT-in Minsk Qrupu barədə Qərbin ölkəmizin haqlı olan maraqlarına xidmət edən mövqe bildirməsi, Azərbaycanın bölgədə yeni reallıqlar yaratdığını etiraf etməsi, haqq və hüquqlarını müdafiə etməsi, Ermənistan tərəfinə öhdəliklərini yerinə yetirmələri barədə xatırlatmaları, bizim şərtlərimizə hörmətlə yanaşılması və digər aspektlər təsdiq edir ki, Qərb də Azərbaycanla münasibətləri qorumaqda və bu münasibətləri daha da yaxşılaşdırmaqda maraqlıdır. Bir sözlə, heç bir qütb, nə Qərb, nə də Rusiya bölgədə sülhün pozulmasında maraqlı deyil və müharibə istəyindən, hansısa müharibə təhdidindən söhbət gedə bilməz.

Bir məqama də diqqəti cəlb etmək yerinə düşərdi ki, Ukraynadan, qondarma Dnestryanı məsələsindən və digər buna bənzər ərazilərdən fərqli olaraq süni olaraq yaradılan qondarma Qarabağ məsələsi artıq keçmişdə qalıb. Azərbaycan 30 ilə yaxın müddətdə səbr nümayiş etdirsə də, məsələnin beynəlxalq təşkilatlar tərəfindən həll edilməsinə şərait yaradaraq gözləsə də, sonda bunun nəticəsiz olduğu barədə doğru qənaətə gəlməklə, öz imkanları hesabına bu məsələni hərbi yolla həll etdi. Azərbaycan özünə məxsus olan və erməni separatçıları, təcavüzkarları tərəfindən əsrin üçdə birinə yaxın müddət ərzində işğal altında saxlanılan torpaqlarını işğaldan azad etdi, bölgədə təhlükəsizliyin təminatçısı kimi çıxış etdi. Bizə məxsus olan torpaqlara iddialı olan təcavüzkar tərəf, Ermənistan tərəfi Azərbaycanın gücü, qüdrəti, potensialı, müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, Azərbaycan xalqının birliyi, həmrəyliyi, Azərbaycan Ordusunun rəşadəti qarşısında tab gətirə bilməyib ən qısa zamanda, cəmi 44 gün ərzində məğlubiyyətini qəbul etdi və kapitulyasiya sənədinə imza atdı. Bir sözlə, bölgədə bir zamanlar problem sayılan məsələlər Azərbaycanın öz imkanları hesabına öz həllini tapdı və artıq problem deyilən hansısa məsələdən söhbət gedə bilməz. Azərbaycan yeni reallıqlar yaratdı və bu reallıqları da bütün dünya qəbul edir. Bu isə o deməkdir ki, bölgə qarışıqlıq, qarşıdurma yaratmaq üçün hansısa bəhanə, yaxud səbəb yoxdur. Hansısa dövlət, hansısa qüvvə Azərbaycanın işinə qarışa, suveren hüquqlarına müdaxilə edə bilməz. Ələlxüsus, son zamanlar beynəlxalq hüququn məhz bütün dünyada müzakirə mövzusu olduğu bir məqamda əksini fərz etmək belə mümkünsüzdür və Rusiya ilə Qərbin qarşıdurmasının bölgəmiz üçün təhdid olması ehtimalı sıfıra bərabərdir. Bir sözlə, Rusiya - Qərb qarşıdurmasının bölgəmiz üçün heç bir təhlükəsi yoxdur.

***İnam Hacıyev***

# Alternativ enerji erası başlayır: biz hazırıqmı?

Dünyada enerjiyə tələbat artdıqca vəziyyət gərginləşir. Beynəlxalq Enerji Agentliyinin dünyada enerji istifadəsinə dair statistikasına görə, 2030-cu ilədək dünyada enerjiyə olan tələbat 53% artacaq. Sürətli istismar nəticəsində dünyada neft, qaz, kömür və s. bu kimi ənənəvi enerji ehtiyatları tükənmək üzrədir. Hətta bunun 2050-ci ilədək baş verəcəyi haqda ciddi elmi proqnozlar var. Mütəxəssisin qənaətincə, bu kimi proqnozlar yaxın gələcəkdə ənənəvi enerji mənbələrinə təzyiqin necə artacağını və resursların kifayət etməyəcəyini göstərməklə yanaşı, həm də alternativ enerjinin vacibliyini və perspektivini göstərir.



Məhz bu üzdən inkişaf etmiş dövlətlər alternativ enerji mənbələrindən istifadəni artırmaqla ənənəvi enerji mənbələrindən asılılığı azaltmağa çalışırlar. Hazırda dünyada istehsal olunan enerjinin yalnız 13 faizi alternativ və bərpa olunan enerji mənbələrinin payına düşür. Bu enerjinin 80 faizi biokütlənin, 16 faizi suyun, 3 faizi geotermal, 1 faizi isə günəş və külək enerjisinin payına düşür.

Ekoloqların və fiziklərin hesablamalarına görə isə, bu göstərici mövcud potensialla müqayisədə çox aşağıdır, çünki alternativ enerji mənbələri bütün bəşəriyyəti əbədi olaraq istənilən qədər enerji ilə təmin etmək qüdrətindədir. Elmi araşdırmalar göstərir ki, Azərbaycanda günəş, külək, termal sular və s. təbii enerji resurları başqa ölkələrdən yüksəkdir. Külək enerji resurslarına görə, dünyada bəlkə də birinciyik. Hətta, bu sahədə liderlik edən Almaniyada belə küləyin gücü ölkəmizdə olan qədər deyil.

Günəş enerjisi sarıdan da şanslı ölkəyik. Azərbaycanda ildə 300 günəşli və 270 küləkli günün olmasını nəzərə alsaq demək olar ki, bu regionda külək və günəş energetikasının inkişafı çox perspektivlidir.

Biokütlə və geotermal enerjisi üçün də böyük mənbələr var. Hökumət bu potensialdan yararlanmaq üçün bir sıra vacib işlər həyata keçirib. Abşeronda və bəzi digər ərazilərdə külək və günəş enerjisi qurğuları quraşdırılıb. Sumqayıtda günəş batareyaları istehsal edən zavodun tikintisi artıq başa çatıb və zavod öz məhsullarını istehsal edir. Bəzi dağ kəndlərində pilot layihə çərçivəsində bir neçə bioqaz qurğusu da quraşdırıb.

Bundan başqa, bir sıra binaların, turist mərkəzlərinin və sair obyektlərin günəş və ya külək enerjisi ilə təminatı pilot layihələr həyata keçirilib. Kiçik SES-lərin tikintisi davam edir. Balaxanıdakı məişət tullantılarını emal edən zavod da bura aid edilə bilər. Bu kimi digər işlər də həyata keçirilib. Lakin bu işləri hələ ki, qənaətbəxş saymaq olmaz, çünki bu sahədə potensialın milyardda biri belə istifadə olunmur.

Enerji sektorunun diversifikasiyası ilə bağlı hökumətin elan etdiyi əsas məqsəd Azərbaycanda enerji tələbatının ümumi həcmində alternativ enerjinin səviyyəsini sürətlə yüksəltməkdir. Böyük resurslarımız var, amma bu sahənin sürətli inkişafı üçün yeni texnologiyalara, mütəxəssislərə, ən əsası dövlətin güclü dəstəyinə ehtiyac var. Neft istehsalının getdikcə azalması göstərir ki, çox da uzaq olmayan gələcəkdə Azərbaycan hətta öz enerjiyə olan tələbatını ödəməkdə çətinlik çəkə bilər. Ona görə də, dövlət səviyyəsində bu istiqamətdə görülən işlər daha da sürətləndirilməli, bu sahə iqtisadiyyatın diversifikasiyası kontekstindən nəzərdən keçirilməli, neft sektoruna alternativ sahələrdən biri kimi inkişaf etdirilməlidir.

Hökumətin diversifikasiya proqramında qeyri-neft sektorunda inkişafına xüsusi diqqət yetiriləcək və yardım göstəriləcək sahələrindən biri də alternativ enerji sektoru ola bilər. Yuxarıda dediyimiz kimi bu sahədə Azərbaycanda yüksək təbii potensial var. Ən əsası bu sahə digərləri kimi tükənən xammala əsaslanmır, daimi, tükənməz ehtiyatlardan istifadəni ehtiva edir. Üstəlik, bu ekologiyaya zərər vurmayan, təbiəti qoruyan, əlavə istehsal vasitələri, hər il yeni xərclər tələb etməyən sahədir.

Bunu nəzərə alsaq, klaster yanaşma üzrə seçiləcək əsas sahələrdən biri də alternativ enerji sektoru olmalıdır. Bunun üçün bu sahədə özəl şirkətlərin fəaliyyəti stimullaşdırılmalı, onlara müəyyən müddətə vergi güzəştləri edilməlidir. Bundan başqa, xarici fondlarda 1 faizlə gəlirliliklə saxlanan maliyyə ehtiyatlarımızdan kiçik bir hissəni bu sahəyə investisiya və kredit şəklində yönəltməklə qısa müddətdə ciddi nəticələr əldə etmək olar. Enerjinin daimi bazarı var, hətta biz elektrik enerjisi şəklində sata bilməsək belə, ölkədə daxili neft-qaz istehlakını azalda bilər, enerjiyə olan tələbatın böyük bir hissəsini öz alternativ enerjimizlə ödəyərək, qalan nefti və qazı da xaricə baha qiymətə sata bilərik.

Göründüyü kimi, bu, olduqca strateji və əvəzedilməz, daimi işləyəcək və xeyir verəcək bir sahədir. Düzdür, ilk vaxtlarda müəyyən çətinliklər yaranır və yaranacaq, lakin biz strateji qitisadi inkişaf sistemi yaratmağa məcburuq. Unutmaq lazım deyil ki, tükənən resurslara dayanan iqtisadiyyat gələcək üçün böyük təhlükə yaradacaq. Nə qədər ki gec deyil, bu barədə daha ciddi düşünməliyik.

Bu sahədə özəl şirkətlərin və vətəndaşların da fəal iştirakı daha effektli olardı. Hər şeyi dövlətdən gözləmək olmaz. Dövlət sadəcə bunun üçün lazımi şərait yarada bilər və bu məsələnin daha bir tərəfini təmin edə bilər. Belə ki, alternativ enerji istehsal şəxslərin öz ehtiyaclarından artıq istehsal etdikləri enerjinin artıq qalan hissəsinin sata bilməsi imkanı təmin olunmalıdır. Bu addım bu sahənin inkişafına ciddi təkan verə bilər. Dövlətin enerji təminatı öhdəliyi azalar və artıq qalan enerji resurslarını ixrac edib xeyli valyuta qazana bilər. Hər bir halda bərpaolunan enerji gələcəyin qarantıdır. Bu istiqamətdə işləri sürətləndirmək lazımdır.

***Elçin Bayramlı***

DƏYİRMİ MASA

# Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət

# Azərbaycanı qələbələrə aparır



(əvvəli ötən sayımızda)

"Səs" qəzetinin redaksiyasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycanı qələbələrə aparır" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masada Milli Məclisin İntizam Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Eldar İbrahimov, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü Şahlar Əsgərov, Milli Məclisin Əmək və sosial siyasət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Musa Quliyev, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Elnur Sadıqov, Yeni Azərbaycan Partiyasının Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov və Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev iştirak ediblər.

Dəyirmi masanı giriş sözü ilə açan "Səs" qəzetinin siyasət şöbəsini müdiri İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müdrik siyasətinə nəzər salıb, Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi üçün böyük və zəngin irs qoyduğunu bildirib. Qeyd edib ki, Ulu Öndər dönməz əqidəsi və uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub: "Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, ideoloji, iqtisadi əsaslarını yaradıb, xalqı müstəqil, güclü dövlətə sahib olmaq arzusuna qovuşdurub. Ulu Öndər Heydər Əliyev təkcə Azərbaycan coğrafiyası daxilində deyil, bütün bəşəriyyət tərəfindən qəbul edilən böyük Şəxsiyyətdir".

İ.Əliyev Ulu Öndərin müstəqil respublikamıza rəhbərliyi dövründə əhalinin sosial-rifah halının yaxşılaşmasında, ordu quruculuğunda, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə inqilaba bərabər islahatlar həyata keçirildiyini bildirib. Qeyd edib ki, məhz Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın dünya xəritəsində yeri və rolu möhkəmlənib, beynəlxalq aləmdə nüfuzlu aparıcı dövlətlərdən birinə çevrilib.

## HEYDƏR ƏLİYEV TALEYÜKLÜ MƏSƏLƏLƏRİ ZAMANINDA MƏRHƏLƏ-MƏRHƏLƏ HƏYATA KEÇİRƏN BÖYÜK ŞƏXSİYYƏTDİR

*ELNUR SADIQOV:*

- Biz bu gün çox aktual bir mövzunu müzakirə edirik. Həqiqətən də Ulu Öndər Heydər Əliyevin 99 il öncə Azərbaycanda dünyaya gəlməsi və Onun Azərbaycan xalqına mənsub olması xalqımızın xoşbəxtliyidir. Azərbaycanın dövlətçilik tarixinin ən böyük şəxsiyyətlərindən biri olan, xalqı qarşısında misilsiz xidmətlər göstərən, bütün ictimai-siyasi fəaliyyətini doğma xalqının yüksəlişinə və tərəqqisinə həsr edən Ümummilli Lider Heydər Əliyevin həyat yolu daim tədqiq olunacaq və öyrəniləcəkdir. O, Azərbaycanının taleyüklü məsələlərini zamanında mərhələ-mərhələ həyata keçirən Böyük Şəxsiyyətdir. Müxtəlif cəmiyyətlərin, sosializm quruluşunun, bazar iqtisadiyyatının olmasına baxmayaraq, Ulu Öndər Heydər Əliyev həmin dövrə uyğun olan siyasi-iqtisadi məsələləri həyata keçirməsi hər bir liderə məxsus olmur. Nəticə etibarilə bu gün Heydər Əliyevin Azərbaycan xalqının taleyinə və elm-təhsil sferasına xüsusi diqqəti öz nəticələrini verməyə başlayır. Mən həmişə bu məsələni qeyd edirəm ki, dərs dediyim xarici ölkələrdə mənə Azərbaycandan gəlmiş qonaq professor kimi yox, eyni zamanda inkişaf etmiş bir ölkənin vətəndaşı kimi yanaşılır. Ulu Öndər həmişə vurğulayırdı ki, bizim gənclər Azərbaycanı xarici ölkələrdə təmsil etməlidir. Bu da bir gənc kimi hamının arzusu idi. Heydər Əliyevin apardığı siyasət nəticəsində xüsusilə iqtisadi sahədə xarici ölkələrdə Azərbaycanın bu təcrübəsini bu günə qədər öyrənirlər. SSRİ dağıldıqdan sonra Azərbaycanın hansı vəziyyətdə olduğunu hamı bilir. Xarici borcların meydana çıxması ilə artıq o dövrdə acınacaqlı bir vəziyyət idi. Xarici borcla ölkəni idarə etmək mümkün deyildi. Çünki artıq sən borclu olan bir ölkəsən. Bu şəkildə ölkəni idarə edə bilmək həmin ölkənin sərkərdəsindən asılıdır. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun Heydər Əliyev kimi bir Sərkərdəsi ölkəyə rəhbərlik etməyə başladı.

## DÖVLƏTÇİLİK, AZƏRBAYCANÇILIQ İDEOLOGİYASINA SADİQ SAĞLAM GƏNCLİK YETİŞİB

*FƏSLİ NƏBİYEV:*

- Məndən əvvəl çıxış edən uzun illər ictimai-siyasi fəaliyyətləri ilə seçilən partiyamızın üzvləri bir daha Azərbaycanın müasir tarixinin səhifələrini vərəqlədilər. Gənc olaraq bu mənə çox xoş təsir bağışladı. Bir dövlətin gələcək inkişafını uğurlu şəkildə təmin etməsi üçün onun savadlı və vətənpərvər bir gəncliyə sahib olması çox önəmli məsələdir. Çünki gənclik cəmiyyətin əsas aparıcı qüvvəsidir. Onlar Azərbaycanın inkişafının əsas təminatçısıdırlar. Gənclər cəmiyyətin əsas enerjisinin toplandığı bir təbəqədir. Azərbaycan o dövlətlərdən biridir ki, onun vətənpərvər, məhz bu cür yüksək keyfiyyətlərə cavab verən gəncliyi var. Əlbəttə, bu cür gəncliyin yetişməsi də təsadüfi deyil. Bu, məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər 1993-cü ildə xalqın böyük təkidi və dəstəyi ilə hakimiyyətə döndükdən sonra dövlət quruculuğu işində əsas üstünlük verdiyi sahələrdən biri də məhz gənclərlə iş, dövlətin gənclərlə siyasətinin müəyyənləşdirilməsi və onun inkişafı idi.

Məhz 1990-cı illərdə Azərbaycan gəncliyinin inkişafı istiqamətində atılan addımlar, yaradılan qanunvericilik bazası artıq XXI əsrdə Azərbaycan gəncliyinin fərd olaraq yetişməsi ilə nəticələndi. Ulu Öndərin çıxışlarında belə bir hissə var idi ki, Azərbaycan gəncliyi 20-ci əsrdə toplanmış tarixi təcrübələrə əsaslanaraq, 21-ci əsrdə Azərbaycanımızı irəliyə doğru apararaq onu inkişaf etdirəcək. Əslində, bu 21-ci əsrdəki gəncliyin üzərinə çox böyük tarixi bir məsuliyyət qoyurdu. Belə ki, Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında 2000-ci illərin əvvəllərindən həyata keçirilən dövlət gənclər siyasəti son 20 il ərzində müasir Azərbaycan gəncliyinin formalaşmasına gətirib çıxardı. Həmin gənclik Ulu Öndər Heydər Əliyevin dövlətçilik, azərbaycançılıq ideologiyasına sadiq qalaraq tam sağlam vətəndaş kimi yetişdilər. Onlar ölkəmizin inkişafı yolunda səfərbər oldular. Bu işin aparılmasında son 20 ilə yaxın dövrdə dövlət gənclər siyasəti çərçivəsində aparılan işlər böyük önəm kəsb edir. Bu illər ərzində Azərbaycanda gənclərdən ibarət böyük könüllülər ordusu formalaşdı.

Bizim gənc nəsil o qədər xoşbəxtdir ki, onlar canlı şəkildə Ulu Öndərin əsasını qoyduğu ideoloji dəsti-xəttin tamamlanmasını gördülər. Onlar vaxtında atılan addımlara şahidlik etdilər.

## Ulu Öndər Heydər Əliyev Azərbaycançılığın yaradıcısı və müdafiəçisidir

*ELDAR İBRAHİMOV:*

- Xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında, onu dövlətçiliyinin ayrılmaz tərkib hissəsi və dövlət siyasətinin aparıcı qoluna çevrilməsində Ümummilli Liderimiz Heydər Əliyev qədər qüdrətli və cəsarətli şəxsiyyət olmamışdır. O, həmişə zirvədə durmuş, durur və əbədi olaraq duracaqdır. Çünki Ulu Öndər Heydər Əliyev Azərbaycançılığın yaradıcısı və müdafiəçisidir. Bu Şəxsiyyətin xalqının və millətinin xoşbəxtliyi üçün fədakarcasına görmüş olduğu işlərin əvəzi yoxdur. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəbdir. Ümummilli Lider Heydər Əliyev elə bir şəxsiyyətdir ki, Onun yaşadığı zaman tarixə çevrildi.

Azərbaycan bugünki inkişafı ilə, siyasi, iqtisadi, hərbi, mədəni və s. istiqamətlər üzrə əldə etdiyi nəticələrə görə bölgədə və dünyada söz sahibi olan bir ölkəyə çevrilib. Bunun əldə olunmasında Ümummilli Lider Heydər Əliyev yolunun layiqli davamçısı Prezident İlham Əliyevin gərgin əməyi, yorulmadan çalışması, uzaqgörən xarici və daxili siyasəti dayanır. Cənab Prezidentin ölkəyə rəhbərliyi dövründə Azərbaycan möhtəşəm inkişaf yoluna qədəm qoyub və əldə olunan uğurlarının təhlilinə nəzər salsaq görərik ki, Cənab İlham Əliyevin hər bir vədi əməli fəaliyyətində öz əksini tapıb. Dövlət başçısının 2003-cü ildə xalqın yekdil dəstəyi ilə Prezident seçilməsi müstəqil Azərbaycanın həyatında yeni mərhələnin başlanğıcı oldu. Ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu günə qədər olan müddət Azərbaycan tarixinə sürətli inkişaf dövrü kimi daxil olub. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişafını təmin edib. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir. Dövlət başçısının rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır. İqtisadiyyatın neft-qaz sektoru əsaslı şəkildə inkişaf etmişdir. Bütün bunlarla yanaşı, ötən illər ərzində Azərbaycanın müdafiə qabiliyyəti gücləndirildi. Təchizat, silah-sursat, texnika, döyüş qabiliyyəti baxımından ordumuz güclü ordular sırasına daxil olub. Ərazi bütövlüyümüzü təmin etmək iqtidarında olan və bunu 44 günlük Vətən müharibəsində təsdiqləyən müzəffər ordumuzun dövlət başçısının ölkəyə rəhbərliyi dövründə həm döyüş qabiliyyəti artırıldı, həm də müasir hərbi texnika ilə təminatı həyata keçirildi. Azərbaycan xalqı "dəmir yumruq" əməliyyatı ilə torpaqların işğaldan azad etdi. Xalqımız Vətənin müdafiəsi və torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda birliyini, gücünü bütün dünyaya nümayiş etdirdi. Bu gün Azərbaycan xalqı böyük qələbədən sonra işğaldan azad olunmuş torpaqlara Böyük Qayıdışa başlayıb. Bu gün Azərbaycan azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işlərini davam etdirir. Bu ərazilərdə yeni yollar çəkilir, elektrik stansiyaları tikilir. Dövlət başçısı tərəfindən həyata keçirilən siyasət Azərbaycanın daha güclü dövlətə çevrilməsinə, xalqın rifahına, firavan yaşayışına və inkişafına hesablanıb.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Zəfər yolu

## ilə dünyaya ilk olaraq qürur daşındı!

**Düz 30 il idi ki, dünyanın harasında yaşamasından asılı olmayaraq azərbaycanlıların bir dərdi var idi: torpaq, yurd, ata-baba ocağı dərdi. Dünyanın dörd bir tərəfinə səpələnən azərbaycanlılar arasında Şuşadan, Laçından, Kəlbəcərdən, Füzulidən, Zəngilandan və digər işğal olunmuş rayonlarımızdan olanlar vardı. Onların çoxu o torpaqları görməmişdilər. Ata-baba yurdları haqqında nənə-babalarından, ata-analarından eşitmişdilər. Ürəkləri o torpaqlarda döyünürdü. Bircə dəfə o yerlərə ayaq basmaq, haqqında nənələrdən nağıltək dinlədikləri gözəlliklər məkanlarını görməyə can atırdılar. Lakin görə bilirdilərmi, arzuları reallaşırdımı? Xeyr, torpaqlar 30 il idi ki, məhbusluqdaydı. Elə bir məhbusluq ki, heç kim gedə, heç kim görə bilməzdi.**

### Məhbusluqdan azadlığa

30 ilin əvvəlində respublikamızın səriştəsiz rəhbərləri tərəfindən bir-birinin ardınca ermənilərə satılmışdı göz bəbəyi torpaqlarımız. Soydaşlarımız öz doğma evlərini tərk etməli olmuşdular. Tarixən ata-babaları yaşayan, qəbiristanlıqlarda əzizləri uyuyan torpaqlardan didərgin salınmışdı insanlar. Qaçqın, köçkün həyatı yaşamağa məcbur edilmişdilər. Onlar qurulu evlərini, bar üstündə olan bağ-bağçalarını, həyət-baca dolu mal-heyvanlarını qoyub bir gecədə doğma yurdlarını tərk etməli olmuşdular. Çünki düşmən başlarının üstünü kəsmişdi. Silahı düz gözlərinin içinə tuşlamışdı. Silahın burnunda onları torpaqlarından çıxmağa məcbur etmişdi.

O yurdların dağı-daşı şahid idi insanların yaşadıqları faciələrə, gözləri önündə öldürülən həmyerlilərinə, axıdılan qanlara. O dağ-daş şahid idi yurdundan zorla qovulanların ahu-zarına, sinəsindən zorla qoparılan əzizlərinə. Elə o vaxt-bu vaxt da küskün düşmüşdü dağlar. 30 il əsirlikdə qaş-qabaqlı, sinəsi dağlı, gözü yollarda idi. O bir də sakinləri o torpaqlara qayıdandan sonra gülümsəyəcəkdi. Günəşdən qaçıb gizlənməyəcəkdi. Saç nurunu üzərimə, deyəcəkdi.



Azərbaycanda yaşayan soydaşlarımız kimi, dünyanın ayrı-ayrı yerlərində yaşayan azərbaycanlılar da bir gün torpaqlarının işğaldan azad olunacağı günü səbrsizliklə gözləyirdilər. Bunun üçün haqq səslərini bütün dünyaya yayırdılar. Lakin səslərinə səs verən yoxdu ki, yoxdu.

### Payızı bahar olan yurdum

2020-ci ilin 44 günlük payızı 30 il bu yerlərdən perik düşən baharı gətirdi Qarabağa. Sentyabrın 27-dən noyabrın 10-dək Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuz düşmənin başına od yağdırdı. 1990-cı illərdə Birinci Vətən Müharibəsindən bu yana ermənilərin bütün çirkin əməlləri cavablandırıldı. Düşmən dəmir yumruğun zərbəsi ilə parça-parça oldu. Torpaqlarımızda uzun illərdən bəri qurduqları barrikadalar yarıldı. "Böyük, məhvedilməz Ermənistan" röya olaraq qaldı düşmənin ta yuxu tutmayan gözündə.

44 gündə bir-birinin ardınca azad edilən torpaqlarımız uğrunda yüzlərlə mərd, igid övladlarımızı şəhid verdik, yüzlərlə oğullarımız sağlamlıqlarını itirdilər. Qarabağ başdan-başa doğma balalarının qanına boyandı.

Payız ana oldu, aldı igidlərimizi qoynuna. Yarpağını yastıq etdi, yorğan etdi əsgərimizə. Şəhidimizi aldı qoynuna, laylay dedi ona. Analarına çatmayan əllərindən tutdu. Göz yaşlarını tökdü üstlərinə. Analarından əvvəl bağrı dağlanan payız oldu.

Payız həm ağladı, həm güldü. Şəhidinə yas tutarkən payızlığından da keçdi. Bahara döndü. Şəhid qanı ilə suvarılan torpaqlar bir andaca yaşıllaşdı. Ağaclar 30 il sonra çiçəkləməyə başladı. Bir-birinin ardınca torpaqlarımız işğaldan azad edildikcə payız yerini bahara verdi. Günəş buludlardan boylandı, Qarabağa gülümsədi, Qarabağın üzü güldü.

### 44 gündə ürəkləri Vətəndə - Qarabağda döyünən dünya azərbaycanlıları

Özləri Vətəndən kənarda yaşasalar da, ürəkləri bir an Vətəndən kənar olmadı dünyadakı soydaşlarımızın. 30 il boyunca Qarabağın haqq səsini dünyaya yaydılar.

Ümummilli liderimiz bütün dünya azərbaycanlılarını bir olmağa çağırdı. Birləşdilər, diaspor hərəkatını təkmilləşdirdilər. Dünya azərbaycanlılarının qurultayları onların görüş, fikir mübadiləsi yerinə çevrildi.

Dünyadakı azərbaycanlıların ürəyi paytaxt Bakıda döyünür hər zaman. Bu ürəklər görmədikləri Qarabağa yollandı illərlə. Müharibə zamanı əsgərimiz harada vuruşdusa, orada döyündü. Füzulidə, Zəngilanda... daha sonra Şuşada, Laçın, Kəlbəcər, Ağdamda. Döyündü, döyündükcə də qələbəni yaxınlaşdırdı.

Günlərlə küçə, meydanlarda Qarabağın haqq səsinə səs verilməsini istədilər, Vətəndəki soydaşları ilə həmrəy olduqlarını bildirdilər. Torpaq təşnəsinə son qoyulmasını, minlərlə insanın öz ata-baba torpaqlarına qayıtmasını arzuladılar. Xəyalları Qarabağı dolandı. Nənə-babalarının anlatdıqları Qarabağın mənzərəsini qurdular gözləri önündə. Yollandılar bu torpaqlara, xəyalən gəzdilər, qayıtdılar. Və bunun bir gün gerçəyə dönəcəyinə əmin oldular. Çünki ölkəmizin Prezidentinin dünyada torpaqlarımızın azad olunması ilə bağlı apardığı ardıcıl işləri izləyirdilər. Bütün bunlar Qarabağ Zəfərinin yaxınlaşdığını göstərirdi.

O Zəfər qazanıldı. 44 gündə Azərbaycan dövlət-xalq birliyini dünyaya nümayiş etdirdi. Həmrəyliyini bəyan etdi. Dünya bu xalqdan və müharibədən çox şeylər öyrəndi.

### Cənubi Qafqaz faşizmdən xilas edildi

Biz tək Zəfər çalmadıq, həm də erməni faşizminin təhlükəsini məhv etdik. Dünya Azərbaycanlılarının V Qurultayında ölkə başçısının dediyi kimi: Biz faşizmi məhv etdik. Biz Cənubi Qafqazı faşizmdən xilas etdik. Ancaq hələ də faşizmin təzahürləri baş qaldırır, hələ də Ermənistanda bəzi dairələr və dünya erməniliyi, xarici ölkələrdə yaşayan ermənilər bizi hədələməyə çalışırlar. Amma İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır. Biz gücümüzü artırmışıq. İlyarım ərzində ordu quruculuğu sahəsində çox böyük işlər görüldü. Bu işlərin bir hissəsi ictimaiyyətə təqdim edildi, bir hissəsi, əlbəttə ki, təqdim edilə bilməz. Ancaq hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və biz hər an erməni faşizmini,- əgər bir daha baş qaldırsa, - əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı bilir, yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır.

### Qarabağ: xəyaldan gerçəyə

Prezident cənab İlham Əliyev: Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir.

Bəli, 30 il öncə xəyalən Qarabağı, Qarabağın baş tacı Şuşanı dolaşan dünya azərbaycanlılarının bir neçə gün əvvəl bu torpaqlara gəlmələri gerçək oldu. Gəzdilər müəyyən olunmuş əraziləri. Erməni işğalına məruz qaldığından nənə nağıllarındakı təsvvürləri görə bilməsələr də, təbiətin gözəlliyini duydular, həyata keçirilən quruculuq işlərini gördülər. Onu yəqin etdilər ki, Qarabağ qısa bir zamanda dünyanın həsəb aparacağı məkana çüvriləcək.

### Zəfər yolu ilə dünyaya qürur daşındı

Dünyanın 65 ölkəsindən Şuşaya Zəfər yolu ilə gələn 400 qurultay nümayəndəsi azad torpaqları gəzdikcə, dalğalanan Azərbaycan bayrağını gördükcə böyük qürur duydular. Bunu onların mətbuat üçün verdikləri müsahibələrində də gördük. Qarabağda olduqları üçün özlərini xoşbəxt hesab etdilər.

Dövlətimizin başçısının qurultaydakı nitqinin son cümlələrindən isə hər birimiz daha çox qürur duyduq: ...Ancaq bu gün vəziyyət tam başqadır. Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bizi bu torpaqlardan bizi tərpədə bilməz.

### Yaşasın Şuşa! Yaşasın Qarabağ! Hamımız birlikdə: Qarabağ Azərbaycandır!

Bəli, dünyada bəlkə də ilk dəfə idi ki, bu cür qurultay keçirilirdi. Bu Zəfər qurultayı dünyaya bir mesaj verdi: nəyi nə vaxt, necə etməyin nəticəsi mesajını bir daha verdi. Bütün bunların fonunda isə dünya azərbaycanlıları-qurultay iştirakçıları gəldikləri Zəfər yolu ilə mənzilbaşına qayıdarkən Qarabağdan 65 ölkəyə qürur payı apardılar. Apadılar ki, o ölkələrdə bölüşələr, bölüşüb deyələr ki, biz Azərbaycanlı olduğumuz üçün fəxr edirik.

Bu da tarixi bir hadisədir ki, Zəfər yolu ilə dünyaya ilk olaraq qürur daşındı.

***Mətanət MƏMMƏDOVA***

## Roma Universitetinin professoru: "Şuşa forumu Azərbaycandan beynəlxalq ictimaiyyətə göndərilən mühüm mesajdır"



Bu mənim Qarabağa ikinci, Şuşaya isə ilk səfərimdir. Şuşada keçirilən "Cənubi Qafqaz: İnkişaf və Əməkdaşlıq" Forumu Cənubi Qafqazın tarixini, geosiyasi vəziyyətini araşdıran müxtəlif ölkə nümayəndələrinin iştirak etdiyi çox önəmli tədbirdir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Roma Universitetinin professoru Salvatore Santangelo söyləyib. "Biz bu gün bu forumda postmünaqişə dövründə sülh və inkişaf barədə danışır, düşüncələrimizi bölüşürük. Şuşada keçirilən bu forum Azərbaycandan beynəlxalq ictimaiyyətə göndərilən mühüm mesajdır", - deyə italiyalı professor vurğulayıb.

## Fransalı tədqiqatçı: "Ermənilərin Cənubi Qafqazda törətdikləri ilə daha əvvəl Şərqi Anadoluda törətdikləri vandalizm aktları arasında bənzərliklər var"



Bir tədqiqatçı olaraq demək istəyirəm ki, ermənilərin 1990-2020-ci illərdə Cənubi Qafqazda törətdikləri məhvetmə prosesi ilə daha əvvəl Şərqi Anadoluda törətdikləri vandalizm aktları, həmçinin onların Qərbi Anadoluda yunan ordularının tərkibində könüllü olaraq iştirakları arasında bənzərliklər mövcuddur.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Avrasiya Araşdırmaları Mərkəzinin fransalı tədqiqatçısı Maksim Qoən deyib. "Ermənilərin məqsədi digər xalqların mədəniyyətlərini məhv etməkdir. Bu, onların müəyyən ekstremist siyasətlərinin bir parçasıdır", - deyə fransalı tədqiqatçı vurğulayıb. M.Qoən qeyd edib ki, Şuşanın Cənubi Qafqazın mərkəzində yerləşməsi, təbiətinin gözəl olması burada müxtəlif sahələr üzrə işlərin görülməsi üçün gözəl şərait yaradır.

## Misir portalı: "Şuşa regionun diplomatiya mərkəzinə çevrilib"



Misirin "Əl Diplomasi" portalında xarici beyin mərkəzlərinin, o cümlədən Misirin "Hivar" Strateji Araşdırmalar Mərkəzinin nümayəndələrinin iştirakı ilə Şuşa şəhərində "Cənubi Qafqazda inkişaf və əməkdaşlıq" mövzusunda keçirilən konfrans haqqında xəbər yayımlanıb. Portalda Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin tviter səhifəsində paylaşımına istinadla konfrans iştirakçılarının Füzuli Beynəlxalq Hava Limanı və Ağdamda ərazilərin minalardan təmizlənməsi işləri ilə tanış olmaları barədə məlumat verilib. Xəbərdə vurğulanıb ki, Azərbaycan rəsmisi Şuşa şəhərinin artıq regionun diplomatiya mərkəzinə çevrildiyini bildirib.

## Bakıda məktəblərin tikintisi, əsaslı təmiri və bərpasına 15 milyon 650 min manat ayrıldı



Prezident İlham Əliyev "Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 fevral tarixli 3143 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.37.1-ci yarımbəndində nəzərdə tutulmuş 15.650,0 min (on beş milyon altı yüz əlli min) manat vəsait Bakı Şəhər İcra Hakimiyyətinə ayrılıb.

Maliyyə Nazirliyinə bu Sərəncama əlavədə nəzərdə tutulmuş bölgüyə uyğun olaraq maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

# Nikol hakimiyyəti itirə bilər



Bu gün Ermənistanda siyasi vəziyyət çox gərgindir. Müxalifət Paşinyanı devirməyi qarşısına əsas məqsəd kimi qoyub. Amma hələ də xalqın lazımi dəstəyini qazana bilməyib. Etiraz aksiyalarının təşkilatçıları mitinqçilərin sayını artırmaq üçün rüşvət metodu da işə yaramayıb. Hətta mitinqlərin Qarabağ kartı üzərindən təşkil olunması insanlar arasında qıcıq yaradıb, cəmiyyət ikiyə bölünüb. Daşnaksütyun partiyasının Ermənistan üzrə nümayəndəsi İşxan Saqatelyan son günlər baş nazir Nikol Paşinyanın guya istefa verəcəyi ilə bağlı feyk-xəbər tirajlasa da, bu ermənilər arasında bir o qədər də ciddi qarşılanmayıb. İrəvan meri Hraçya Sarkisyan bu gün hökumətin iclasından sonra jurnalistlərə müsahibəsində bildirib ki, Paşinyan baş nazir postunu itirə bilməz, bu, saxta xəbərdir.

Bu gün "Müqavimət Hərəkatı"nın yürüşü faşist Qaregin Njdenin adını daşıyan meydanından başlayıb. Yürüş başlamazdan əvvəl Daşnaksütyun partiyasının Ali Orqanının nümayəndəsi, Ermənistan Parlamentinin sədr müavini İşxan Saqatelyan bir daha vətəndaşları müqavimət dəstələri yaratmağa və bununla da ümumi mübarizəyə töhfə verməyə, etirazları izləyən vətəndaşları isə hər gün artan hərəkata qoşulmağa çağırıb. "Televiziyaların qarşısında oturaraq bizim hərəkətlərimizi izləyən vətəndaşlarımızı bu mübarizəyə qoşulmağa çağırıram. Təhlükəsiz və əmin-amanlıqda yaşamaq, Vətənə sahib olmaq istəyirsənsə, küçəyə çıx", - deyə müxalifətçi bildirib.

O, ötən gün baş nazir Nikol Paşinyanın kortejini müşayiət edən polis maşınının hamilə qadını vurması və kömək göstərmədən getməsi və sonradan həmin qadının ölməsi hadisəsinə də toxunub: "Biz Nikolun qanlı hərəkətini dayandırmalıyıq. Dünən yoldaşları ilə birlikdə hər kəsin gözü qarşısında bir adamı vuraraq öldürüblər və laqeydliklə keçib gediblər. Həmin vətəndaş Nikolun son qurbanı olmalıdır. Onun qanlı gedişinə son qoyulmalıdır".

Qeyd edək ki, Ermənistanda Paşinyana qarşı təşkil olunan müqavimət hərəkatı getdikcə güclənir. Parlament sədrinin müavini bildirib ki, gözünüzün qabağında aksiyalarımızın və yürüşlərimizin, eləcə də iştirakçı vətəndaşların sayı hər gün ikiqat artır: "Vaxtımız azdır. Dönüş nöqtəsini daha da yaxınlaşdırmaq, xain gücə aydın hərəkətlərlə "Yox" demək üçün hər şeyi edirik və edəcəyik. Biz bütün xalqı mübarizəyə sövq etməliyik və qarşılaşdığımız bütün çətinlikləri qısa zamanda aradan qaldırmalıyıq.

Bu arada Ermənistana təşrif buyurmuş DTİHB/ATƏT-in müşahidə missiyasının nümayəndə heyəti Parlamentin sədri Alen Simonyanla görüşüb. Missiya rəhbəri Yohan Merfi səfərin məqsədinə toxunaraq DTİHB tərəfindən hazırlanmış yekun hesabatı təqdim etmək üçün Ermənistanda olduqlarını qeyd edib. Görüşdə Ermənistanda parlament diplomatiyasının əhəmiyyəti, demokratik ölkələrin parlamentlərində iqtidar və müxalifət arasında əməkdaşlıq formaları və qarşılıqlı təsir məsələləri müzakirə olunub.

Regionda təhlükəsizlik məsələlərinə toxunan Parlamentin sədri ATƏT PA-nın ATƏT regionunda etimadın yaradılması üçün mühüm platforma kimi rolunu yüksək qiymətləndirib, Azərbaycanın ATƏT PA-dakı nümayəndələrinin aqressiv bəyanatlarına diqqət çəkib. O bəyan edib ki, regionda sülhə yalnız Qarabağ münaqişəsinin həlli yolu ilə nail olmaq olar, bura "Qarabağ xalqı"nın öz müqəddəratını təyin etmək hüququnun həyata keçirilməsi əsasında statusun aydınlaşdırılması daxil edilməlidir. Tərəflər bu kontekstdə Ermənistanda keçirilən ümumxalq seçkilərində qeydə alınan nailiyyətləri nəzərə alaraq, seçki sistemlərinin beynəlxalq standartlarına da toxunublar.

Son zamanlar, Rusiyanın başının Ukraynada müharibəyə qarışmasından istifadə edən Qərb Cənubi Qafqazda təşəbbüsü ələ almağa çalışır. Fransanın seçkilərdən sonra Ermənistanla əlaqələrində korrektələr etməsi, ABŞ-ın dövlət katibi Blinkenin, bu ölkənin İrəvandakı səfiri Linn Treysinin, ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş məsləhətçisi Endrü Şoferin Qarabağ barədə söylədikləri fikirlər, Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Dunya Miyatoviçin illik məruzəsindəki qeydləri, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) nümayəndə heyətinin regiona səfəri təsadüfi sayıla bilməz.

30 il ATƏT-in Minsk qrupu vasitəsilə Ermənistan-Azərbaycan münaqişəsini nəzarətdə saxlayan, daha çox "turizm diplomatiyası"na üstünlük verən, bir sözlə 30 il başımızın altına yastıq qoyan ABŞ və Fransa həmsədrlik institutu vasitəsilə əsasən problemin həllinə əngəl yaradıblar. Bu günkü həyəcanları, narahatlıqları reallıqla barışmamaq simptomudur. Ermənistanla Azərbaycanın sülh müqaviləsinə yaxınlaşma meylləri Vaşinqtonla Parisdə əsl çılğınlıq sindromu yaradıb. Ona görə də hər iki keçmiş həmsədr ölkələrin aravurucu rıçaqları işə düşüb. Ermənistanda müxalifətin 1 il 7 aydan sonra "oyanması" da bu oyunun həlqəsi sayılmalıdır.

Siyasi ab-havanın qatı buludla örtülməsi, əlbəttə, Azərbaycanla ikitərəfli əlaqələr yaratmağa can atan (hər halda görüntü belədir - müəllif) Paşinyanın sonunu da gətirə bilər.

***V.VƏLİYEV***



# Paşinyanın
## "qəsdinə dayananlar"..?

**...Buna nə deyəsən? Ermənilər Ermənistanı "qana boyayıb" Nikolun iki il bundan əvvəl yolayrıcında yapdıqları heykəlciyin başını "üzdüyü" bir məqamda bu da mövzu tapıb danışmağa. Elə bil "fitilqoyucu" etiraflarını bu günə saxlayıbmış. Amma, deyim ki, Nikol da adam tanıyanmış... və ona görə də onun bu vəzifəyə təsdiqini yubadırmış..?**

Yenə də nə bilmək olar...bəlkə də hazırda İrəvandakı olanlardan xəbərsizdir? Daşkəndə gedib axı. Orada açılmış "Mərkəzi Asiya: texnoloji sıçrayış üçün məkan" forumunda iştirak edir və hələ desən bir çıxış da yapıb. Amma çıxışı çox bədbin olub. Belə ki, o, "...2022-ci ilin ilk 2 ayında yüksək iqtisadi artım templəri olsa belə, Ermənistanda yoxsulluq səviyyəsi çox böyük sürətlə artır"-deyib.

Deməmişəm, amma gərək deyim ki, bu fikirlərin kim tərəfindən səsləndirildiyini Siz də biləsiniz. Deməli, bu fikirləri Nikol Paşinyanın ölkə iqtisadiyyatını etibar etdiyi "sədaqətli dostu" Vahan Kerobyan bildirib. Özü də elə bir məqmda ki, hazırda ermənilərin bir qismi Nikolun əlindənmi ya əməlindənmi "zəncir çeynəyirlər".

Əslində bunu, Vahan tərəfindən Nikola qarşı düşünülmüş "təxribat" kimi də qəbul etmək olar.

Deməli, Vahanın dediklərinin ardına baxın: "...hökumət sosial fəlakətin qarşısını almaq üçün əlavə səylər göstərməlidir. Ermənistan Nazirlər Kabineti bu istiqamətdə fəal fəaliyyət göstərir, dağ-mədən sənayesindən əldə edilən super gəlirləri kənd təsərrüfatına bölür, Ermənistanın regionlarına kapital qoyuluşlarını və sosial sahələrə ayırmaları artırır. Bundan başqa, Ermənistan hakimiyyəti təhsil, elm və səhiyyəyə investisiyaları artırır"... və s.

Deyəsən, Vahan burada artıq əvvəl dediklərini "malalamağa" çalışır. Amma...

Yaxşı, bəs bu hökumət sizin üçün daha nə etməlidi? Baş nazır Ermənistanda "qeydə alınan" iş yerlərinin sayında görünməmiş artım haqqında danışır...şəbədəyə qoyursunuz, nə bilim onun dediklərini yalanlarının uvertürası adlandırırsınız.

Ermənistandakı resurslardan, o cümlədən insan resurslarının azlığından gileylənir, yenə də Nikolu günahkar bilirsiniz. Guya ermənilərin ölkədən qaçmasının səbəbkarı odur. Budur, Paşinyan söz verib, hökumətin son iclaslarının birində kabinetinin uğursuzluqları barədə danışacaq. Bundan əvvəl belə şeylər heç olurdumu? Təbii ki, yox!

Amma yenə də nə deyəsən bunlara, budur Ermənistan Statistika Komitəsi 2021-ci ilin yanvar-mart ayları ilə müqayisədə yeni ilin ilk üç ayının makroiqtisadi göstəricilərini açıqlayıb: "...sənaye sürətini itirib, kənd təsərrüfatı isə artıq qırmızıdadır".

...Elə bil, komitənin statistik açıqlaması da bu günə, ermənilərin Nikola qarşı "diş qıcıdığı" bir vaxta qalmışdı?

***Ağasəf Babayev***

# Uşaqlar arasında yayılan yeni virusla necə mübarizə aparılmalıdır?

**"Rota virusu infesiyası ilk 4-5 yaşdakı uşaqlarda kəskin başlanğıclı ishalın ən sıx görülən səbəblərindəndir Rotaviruslar ishalın ortaya çıxmasından öncəki günlərdə də nəcisdə bol miqdarda rast gəlinir. Yoluxma virusla kontaminasiya olunmuş su və ya qida ilə yoluxur. Xüsusilə baxça, uşaq evləri və uşaqların sıx kontaktda olduğu yerlərdə olur. Ailə içi yayılma sıx rast gəlinir". Bu sözləri SİA-ya açıqlamasında mütəxəssis pediatr Yüksel Hüseynli deyib.**

Onun sözlərinə görə, başlıca əlamətləri adətən 48 saatdan az davam edən gizli dövrü izləyən temperatur, qusma ilə başlayır: "Sıx, sulu, xüsusilə çox pis qoxulu qansız ishalla davam edir. İshal 5 - 7 gün davam edə bilir. Xüsusilə südəmər uşaqlarda qusma, ishal səbəbilə dehidratasiya əmələ gələ bilər. İmmun sistemi zəif olan xəstələrdə xəstəlik daha uzun ve ağır gedişatlı olur.

**Diaqnoz:**

Nəcisin analizində rotavirus antigeninin müsbət olmağı diaqnozu təsdiqləyir. Lakin diaqnoz müalicənin gedişatına, dehitratasiya və rehidratasiya prosesinə standart



yanaşmaya təsir etmədiyi üçün vacib deyil. Çünki müalicə simptomatik olub, sadəcə maye itkisini bərpa etməyə, temperaturu tənzimləməyə yönəlib. Südəmər uşaqlarda süd əmizdirmə artırılmalı, digər hallarda əsasən yağsız qidalanma olmaqla, qidalanmaya davam edilməlidir".

Yüksəl Hüseynli xəstəlikdən qorunma yollarını qeyd edib: "Ümumi gigiyena qaydalarına əməl etmək yoluxmanın azaldılmasına təsir edir. Əl yuma, yoluxmuş şəxslərlə kontaktdan qaçınılma, ishalın qarşısının alınmasında vacib rol oynayır. Şikayətlərin əmələ gəlməsindən 10-12gün müddətində də nəcislə virus atılır.

Son olaraq, bağça və məktəb yaşlı uşaqlar, qardaş bacısı bağça və ya məktəbə gedən uşaqlar risk qrupundadır. Xəstəlik əlaməti rast gəlinən uşaqlar vaxt itirmədən həkimə aparılmalıdır".

***Ayşən Vəli***



# Kişilər boşandıqları qadınları niyə öldürür?

**Boşanma insan həyatının bir hissəsidir. Bütün dünyada boşanmağa icazə verilir. Demək olar ki, hər yerdə insanlar boşanmanı təəssüf doğuran, lakin bəzən zəruri hadisə kimi qəbul edirlər.**

## İnsanlar niyə boşanır?

Şiddətli davalar, artıq sözlər, zarafatları başa düşməmək, çox televizora baxmaq, qarşı tərəfə qulaq asmamaq, sərxoş olmaq, cinsi münasibətdən imtina etmək qadın və kişilərin evliliyi bitirmək üçün irəli sürdükləri səbəblərdən yalnız bir neçəsidir. Lakin dünyada insanların ər-arvad münasibətlərini bitirməsinə səbəb olan bəzi ümumi vəziyyətlər var.

Xəyanət bu siyahının başındadır. Xüsusilə, qadın tərəfindən olunan xəyanətin sonu boşanma ilə bitir. Sonsuzluq ikinci yerdədir. Kişilərin zorakılığı isə boşanmaların üçüncü səbəbidir.





Boşanma nisbətləri gənclərdə maksimum həddə çatır. ABŞ-da boşanma riski həm kişilər, həm də qadınlar üçün 20-24 yaş arasında ən yüksək həddədir. Birləşmiş Millətlər Təşkilatının illik demoqrafik məlumatlarına görə, boşanmalar adətən, evliliyin dördüncü ilində baş verir.

ABŞ-da boşanmış qadınların 75%, kişilərin 80%-i yenidən evlənir. Evlilik insanı ənənəvi cəmiyyətdə yetkin şəxs kimi təyin etdiyi üçün bütün dünyada boşanmış insanlar özlərinə yeni həyat yoldaşı tapırlar.

Boşandıqdan sonra yenidən aşiq olmaq boşanmadan sonra ağla gələn ilk problemlərdən biridir. Amma bundan da böyük problem var. Boşandıqdan sonra xoşbəxt olmaq. Araşdırmalar qadınların boşandıqdan sonra həyatlarından daha çox razı olduqlarını ortaya çıxarıb. Bəs niyə? Qadınların boşandıqdan sonra niyə daha çox xoşbəxt olurlar?

## Bir qadının boşanmaq istəməsinin səbəbləri

-Tərk edilmiş və əlacsız qalan qadın boşanma tələbi ilə uşaqlarına qulluq üçün aliment tələb edə bilər.

- Əri orta yaş depressiyasındadır. Ər həyat yoldaşının maddi və mənəvi təminatını təmin etmir. O, hətta eqoist davranır və gələcəkdə ümumi rifahı pozacaq davranışlar da edir.

- Ər zorakı və təhqiramiz davranışlar sərgiləyir.

- Ərin nikahdan kənar münasibəti var və ər kimi üzərinə düşən vəzifələri yerinə yetirmir.

Keçmiş ərləri tərəfindən fiziki zorakılığa məruz qalan qadınlar günümüzdə kifayət qədərdir. Qadınlar övladlarının şiddətli zorakılığa məruz qaldıqları şəxslə görüşməsinə icazə verməkdən çəkinirlər.



Ümumiyyətlə, məsələ bütün dünyada eynidir. Öz ayaqları üzərində dayanmaq imkanı verilməyən bir çox qadın üçün evlilik çıxış yolu kimi görünür. Bu, bir adamın digərinin üzərində hökmranlıq etməsi halıdır. Ölkəmizdə müəyyən bir təbəqə var ki, zorakılığı dəstəkləyir. Əri tərəfindən zorakılığa məruz qalan qadın boşanaraq öz ayaqları üzərində durmağa çalışır. Daha sonra bu qadınlar bəzi təbəqələr tərəfindən psixoloji şiddətə məruz qalır.

Türkiyədə qadınlar boşanmaq və ya ərlərindən ayrılmaq istədikləri zaman həyatları təhlükə altına düşür. Lakin bu hal təkcə Türkiyədə deyil, bizdə də var. Son zamanlar isə vəziyyət getdikcə şiddətlənir. Əgər bir qadın boşanmaq istəyirsə, onun həyatı necə təhlükədə ola bilər?! Ölkəmizdə boşanmaq ayıb və namus məsələsidir?

Kişilər boşandıqları qadınları niyə öldürürlər? Burada hansı psixoloji məqamlar var? SİA mövzu ilə bağlı araşdırma aparараq psixoloq və ekspertlərin fikirlərini öyrənib.

**Psixoloq Leyla Fətəli:** "Birinci növbədə diqqət etməliyik ki, kişi nə üçün boşanır? Kişi boşanır, yoxsa kişini boşayırlar? Digər məqam isə boşanma razılaşma yolu ilə olub, yoxsa kişinin hər hansı bir yanlışından dolayı baş verib?

Bu tip hallar əsasən kişinin pis vərdişlərinə görə olur. Kişi əsasən ailəsini və qadınını kimləsə bölüşə bilmədiyi üçün belə edir. Bu özü də bir psixoloji pozuntudur. Bu, "mənim deyilsə, heç kimin olmasın" deməkdir. Kişi nə düzəlməyə çalışmır, nə də sahib olduğunu sahiblənməyi bacarmır. Bu, ailədən gəlir. Ailədə travma alan kişi "səni öldürəcəm" kimi ifadələrdən çox istifadə edir. Ölümlə hədələnən uşaqların travmasıdır bu.



Valideynlər uşaq yetişdirərkən işlətdiyi ifadələrə diqqət etməlidirlər. Hətta uşağı düzgün şəkildə cəzalandırmalıdırlar ki, onlar böyüyüb şəxsiyyət olduqda bu tip yanlışlıqlara yol verməsinlər.

Heç bir ağıllı kişi qadınına xəsarət yetirməz və ya onu öldürməz. Belələri psixoloji problemi olan adamlardır".

**Sosioloq Əhməd Qəşəmoğlu:** "Doğrudur, bəzi kişilər boşandığı qadınları qətlə yetirir. Bu, əvvəla, həmin kişilərin özünün fərdi psixoloji xüsusiyyətlərindən asılıdır. Hər bir insan cinayət törədə bilməz.

İnsanın davranışına təsir edən 4 amil var: fərdi psixoloji xüsusiyyətlər, mühit, aldığı informasiyalar, üstünlük verdiyi dəyərlər. Kişilərin boşandığı həyat yoldaşını öldürməsinin səbəbini bu dörd amildə axtarmaq lazımdır.

Müəyyən adamlar var ki, doğulduqdan etibarən cinayət törədə bilmək psixoloji xüsusiyyətdə olurlar. Amma bəzən mühit amili həmin xüsusiyyəti bloklaya, bəzən isə inkişaf etdirə bilir. 50 il bundan öncə çox nadir hallarda kişi boşandığı həyat yoldaşını qətlə yetirərdi. İndi isə bu hallar çoxalıb. Əgər xalq həmin xalqdırsa, deməli, mühit dəyişib.

İndiki dövrdə bütün Qeyri-Hökumət Təşkilatları qadın azadlığını, boşanmış qadınların sərbəst olduğunu vurğulayır. Lakin boşanmış qadının ərini maarifləndirmək sahəsində proseslər inkişaf etmir. Həmin kişi başa düşmür ki, boşandığın qadına irad tutmağa artıq sənin heç bir səlahiyyətin yoxdur. Amma ortada mənəvi amillər, ictimai qınaq var. Ona görə də mühit şərait yaradır ki, bəzi kişilər qısqanclıq zəminində boşandığı həyat yoldaşını öldürsün. Burada da onların aldığı informasiyalar əsas rol oynayır. Çünki bu informasiyalar maarifləndirici xarakterdə deyil. Eyni zamanda, insanlar düşünür ki, bu qadın mənim həyat yoldaşım olubsa, onun istənilən bir hərəkəti mənim namusuma təsir edir. Bu istiqamətdə həmin kişinin üstünlük verdiyi dəyərlər ortaya çıxır. Bütün bunların təsiri nəticəsində bəzi kişilərin belə bir addım atmasına münbit şərait yaradır".



**Psixoloq Vüsalə Əmiraslanova:** "Bu hal hər 10 kişidən birində müşahidə oluna bilər. Ümumiyyətlə, boşanma prosesi Azərbaycan cəmiyyəti üçün hər zaman ağır olaraq qalır. Bəzən boşanma prosesində kişi tərəfi daha çox psixoloji zədə alır. Daha sonra onda qisas hissi yaranır.

Əgər kişidə heç bir psixi problem və ya kənardan müdaxilə yoxdursa o zaman öldürmə hallarına az rast gəlinir. Demək ki, ailə modelində çox boşluqlar olub. Həmçinin, narkomaniya, alüdəçilik və şiddətə meyillilik də əsas səbəblərdən biridir.



Bəzəm müşahidə edirik ki, psixi problemi olan şübhəçi kişilər düşünür ki, yoldaşını tək qoysa o digər kişi ilə ailə quracaq və ya övladı da digər şəxslə böyüyəcək. Bu zaman da qadından qurtulmağı düşünürlər. Burada problem çoxdur".

***Ayşən Vəli***

ARAŞDIRMA

# Qələbə ruhlu Zəfər Qurultayı!

Diaspor quruculuğu Azərbaycanda müstəqilliyin ilk illərindən aktuallıq kəsb etməyə başlasa da, bu taleyüklü vəzifənin yerinə yetirilməsinə dövlət tərəfindən xüsusi diqqət göstərilməsi məhz Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra mümkün oldu. Hələ 1991-ci ildə Ümummilli Liderin təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis olunması barədə qərar qəbul etmiş və bu tarixi günün bütün ölkə ərazisində bayram kimi qeyd olunması ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisi qarşısında vəsatət qaldırmışdı. Ermənistanın təcavüzü və torpaqlarımızın işğalı dövrünə təsadüf edən 1990-cı illərdə Ulu Öndər beynəlxalq ictimaiyyətin ölkəmizin problemlərinə biganəliyi fonunda soydaşlarımızın dünyadakı səsimiz ola biləcəyi gerçəyini təbliğ edərək, bu istiqamətdə atılan addımları dövlət siyasəti xəttinə çevirdi. Onun dövlət başçısı kimi bütün xarici



*Abil Ağasəfov,*
*YAP Qəbələ rayon təşkilatının sədri*

## İlham Əliyev: "Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün"

səfər proqramlarına mütləq həmin ölkədə yaşayan Azərbaycan icması ilə görüşlər daxil edilirdi. Həmyerlilərimizlə ayrıca xoş abhava, isti münasibətlərə köklənmiş bütün görüşlərində onları yaşadıqları ölkəyə inteqrasiya ilə yanaşı, tarixi vətənlərini də unutmamağa, onun dərdinə biganə qalmamağa, azərbaycançılıq ideologiyası ətrafında birləşməyə çağırırdı. Məhz həmin illərdən başlayan azərbaycanlıların təşkilatlanması 2001-ci il noyabrın 9-10-da müstəqil Azərbaycanın, eləcə də bütün dünya azərbaycanlılarının həyatında tarixi hadisə kimi yaddaqalan Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi ilə davam etdi. Ümummilli Liderin dillər əzbərinə çevrilən ”Mən fəxr edirəm ki, azərbaycanlıyam!” sözləri ilə də tarixə düşən bu qurultayda Heydər Əliyev Azərbaycan diasporunun güclənməsi üçün istiqamətlər müəyyənləşdirdi və tövsiyələrini verdi.

Bu gün böyük qürur hissi ilə qalib Azərbaycanın uğurlarından bəhs edirik. Amma qalibiyyətə qədər keçilən yolun təhlili daim bir zərurət kimi ortaya qoyulur, onu şərtləndirən amillər əsaslı şəkildə diqqətə çatdırılır. Bütün bu reallıqlar isə bilavasitə Heydər Əliyev siyasətinin layiqli davamçısı, bu gün Azərbaycançılıq ideologiyasını dünyaya sübut edən Prezident İlham Əliyev tərəfindən həyata keçirilir. Dünya Azərbaycanlılarının Şuşa şəhərində keçirilən beşinci qurultayı isə tariximizə Zəfər qurultayı kimi fəxarətli titulla düşdü. Parlaq zəfərimizdən sonra, ilk dəfə 2022-ci ilin aprelində dünya azərbaycanlıları azad Qarabağda, azad Şuşada toplaşdılar, qurultay keçirdilər. Öz sarsılmaz və əbədi həmrəyliklərini bir daha qürur ünvanımız Şuşadan bütün dünyaya, dosta-düşmənə nümayiş etdirdilər.

Bu möhtəşəm tədbirdəki çıxışı zamanı Prezident İlham Əliyevin vurğuladığı kimi, bundan sonra Azərbaycan xalqının müzəffər xalq kimi əbədi yaşayacağı, dövlətimizin qalib dövlət kimi sonsuzadək var olacağının mesajını verdilər: ”Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər”.

Azərbaycan Prezidenti nitqində o məqama da xüsusi diqqət çəkdi ki, bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Çünki xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir və onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir: ”Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, Azərbaycan maraqlarının müdafiə edilməsi, əlbəttə ki, bizim dövlətimizi daha da gücləndirir. Biz Azərbaycan dövləti olaraq öz fəaliyyətimizdə həmişə xaricdə yaşayan azərbaycanlıların yaşayışı ilə maraqlanırıq, təmaslar qururuq. Dövlətlərarası münasibətlər müstəvisində bu, önəmli bir amildir. Mən də öz həmkarlarımla, harada ki, azərbaycanlılar yaşayır, o ölkələrin rəhbərləri ilə daim bu məsələyə diqqət yetirirəm”.

Vətən müharibəsində yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətə Azərbaycan həqiqətlərinin çatdırılmasında uğurlu fəaliyyət göstərən diasporumuzun nümayəndələri də Qarabağın azad olunmasından sonra ilk böyük görüşlərini qürur ünvanımız Şuşada keçirmələrinin, azad torpaqlarımıza qürurla qədəm basmağın xoşbəxtliyini yaşadılar.

ANALİTİK + AKTUAL

# Fransa seçkiləri:

## Makronun qələbəsi Avropaya nə vəd edir?

### Yaxud, Almaniyanın kansleri Merkelin istefaya getməsindən sonra Aİ-nin lideri statusuna Makron yiyələnir?

Bir ay davam edən gərgin müzakirələrdən və siyasi mübarizədən sonra Fransanın Mərkəzi Seçki Komissiyası növbəti prezident seçkilərinin qalibinin adını bəyan etdi. Və uzun müddət davam edən ölkədaxili siyasi mübarizədən sonra indi Avropanı bir sual düşündürür: Makron hansı səbəblərdən dolayı yenidən prezident seçildi və dünya buna necə reaksiya verir, eləcə də bu gün Fransanın dəstək göstərdiyi Ukrayna müqabilində Rusiya Makrondan hansı addımları gözləyə bilər?

Xatırladaq ki, seçkilərin ilk turunda Emmanuel Makron və millətçi namizəd Marin Le Pen ən çox səs toplayıb. İkinci tur isə bir gün əvvəl baş tutdu və onda da Makron qalib gəldi. Demək olar ki, seçicilərin 60 faizi Makrona, 40 faizdən bir qədər çoxu isə Le Penə səs verib .

Lakin daha bir məqam da diqqətdən yayınmayıb - Makrona uduzan Le Pen üçün mövcud nəticə irəliləyiş kimi də qiymətləndirilə bilər. Belə ki, 2017-ci ildəki seçkilər zamanı Makronla finala yüksələn Le Pen son 5 illik müqayisədə fərqi iki dəfə azaldıb. Ona görə də siyasətçi onun məğlubiyyətini ”qələbəli məğlubiyyət” adlandırıb. Bu nəticə isə Le Penin Milli Hərəkat partiyasına iyunda keçiriləcək parlament seçkilərində kifayət qədər şans verir. Hətta belə desək, nəzəri cəhətdən Le Pen baş nazir postuna qədər yüksələ bilər. Məsələ ondadır ki, Fransa prezident respublikası olsa da, parlamentdə üstünlük ikili hakimiyyətə gətirib çıxara bilər. Ancaq daha bir amil budur ki, Makronun partiyasının parlamentdə də qalib gəlmək şansları eynidir. Yəni cəmi bir neçə aydan sonra fransızların fərqli səs verəcəyinə kimsə zəmanət verə bilməz...




### Fransızlar Makronun zənginlərin himayədarı, Le Penin isə millətçi olmasından qıcıqlanırlar

Beləliklə, seçkilər göstərdi ki, fransızların üçdə birindən çoxu öz hökumətlərinə prinsipial olaraq etimad göstərmir. Əgər seçkiyə getməyənlərin 28 faizini hesablasaq və onlara da bülletenləri biləərəkdən, ya da bilməyərəkdən korlayanların 9 faizini əlavə etsək, bu zaman fərqli nəticələr də ola bilərdi. Ancaq daha bir reallıq budur ki, fransızlar Makronun zənginlərin himayədarı, Le Penin isə millətçi olmasından qıcıqlanırlar, yəni hər iki halda sosial tərs-mütənasiblik mövcuddur və bu reallıqlar Fransa xalqı tərəfindən rədd edilir. Əbəs deyil ki, seçkilər başa çatar-çatmaz Fransada kütləvi nümayişlər etiraz aksiyalarına start verildi.

Onu da qeyd edək ki, Le Pen millətçi olması ilə yanaşı, həm də Rusiyanın adamı kimi təqdim olunurdu, habelə onun müsəlman fransızlara qarşı münasibəti, həmçinin irqçi baxışları da məlumdur. Ancaq tək o deyil, digər namizədlər - Erik Zemmur, Melenşon və Valeri Pekress də Kremlin əlaltıları kimi qiymətləndiriliblər. Təbii ki, Makron bu kimi iddialardan bəhrələnməyə bilməzdi. O, xüsusilə Ukrayna böhranı amilindən siyasi səmərəsinə istifadə etdi və Fransadakı anti-Rusiya əhval-ruhiyyəsini öz xeyrinə çevirməyi bacardı. Parisdəki ”Champ de Mars” meydanında tərəfdarları qarşısında çıxış edərkən isə Makron ”Biz Ukrayna hadisələrini narahatlıqla izləyir və faciəli dövrdə yaşayırıq” deməsi ilə özünə əlavə səslər qazandırmağa nail ola bildi.

### Makronun qələbəsinə ən çox sevinən Zelenski olsa da, Aİ-nin və ABŞ-ın liderləri də sevinclərini gizlətmirlər

Dünyanın reaksiyasından danışarkən də Makronun qələbəsinə ən çox Ukrayna prezidenti Vladimir Zelenskinin sevindiyini söyləmək yerinə düşərdi. Axı Makronun qələbəsi Rusiyaya qarşı neft embarqosu, Ukraynaya yeni silah tədarükü şanslarını artırır və əgər Le Pen Makrona qalib gəlsəydi, Fransanın NATO-dan çıxması ehtimalı reallaşa bilərdi. Çünki qadın namizəd ölkəsinin şimal alyansından çıxacağı ilə bağlı vədini seçki çağırışlarında da bəyan etmişdi.

Nəticədə Le Penin məğlubiyyətindən sonra Makrona təbrik məktubu ünvanlayan Zelenski qeyd edib: ”Emmanuel Makrona fransız xalqının rifahı naminə yeni uğurlar arzulayıram. Fransanın dəstəyini yüksək qiymətləndirirəm və əminəm ki, biz yeni ümumi qələbələrə doğru birlikdə addımlayırıq! Güclü və vahid Avropaya doğru!”.

Avropanın digər ölkələrinin liderləri də Makronun qalibiyyətindən az sevinmirlər. Misal üçün, Almaniyanın keçmiş kansleri Angela Merkelin istefasından sonra Avropaya Aİ-ni Rusiyadan ”qoruyacaq” siyasətçiyə ehtiyac yaranmışdı. Hazırda həmin siyasətçinin məhz Makron olduğunu istisna etmək olmaz. Əbəs deyil ki, İtaliyanın baş naziri Mario Draqi seçkilərin nəticələrini ”bütün Avropa üçün böyük xəbər”, Almaniya kansleri Olaf Şolz isə ”Avropada ümid doğruldan etimad səsverməsi” adlandırıb. İspaniyanın baş naziri Pedro Sançes isə ”Bu qələbə fransızların azadlığı, güclü və Avropa Birliyinə töhfəsidir”, deyə bildirib.

ABŞ-ın prezidenti Co Bayden isə Makronu təbrik edərək, Ukraynanı dəstəkləmək məsələsində birgə əməkdaşlığa ümid etdiyini bildirib.

### Makron Rusiya ilə münasibətlərin normallaşmasında maraqlı olan siyasətçi qismində qaldığını bir neçə dəfə bəyan etsə də...

Söz yox ki, burada Rusiyanın da mövqeyi maraqlıdır. Vladimir Putin fransız həmkarına təbrik məktubu göndərib. Lakin onu da qeyd edə bilərik ki, bu təbrik tərəflər arasında təmasların tamamilə pozmamaq üçün rəsmi jestdir. Eyni zamanda, Makron Rusiya ilə münasibətlərin normallaşmasında maraqlı olan siyasətçi qismində qaldığını bir neçə dəfə bəyan edib. Ancaq bu o demək deyil ki, Ukraynda böhranı da unudulur. Yəni Rusiya Ukraynaya qarşı başlatdığı hərbi əməliyyatlarını nə qədər tez dayandırsa, bir o qədər onun üçün yaxşı olardı. Əks halda, yenidən prezident seçilmiş Makron ümumilikdə Avropanın seçilən lideri statusunda, ya da vahid Avropanın başında təmsil olunmaqla Rusiyaya təzyiqi artırmaq üçün daha çox hərəkətə keçməli olacaq.

*Rövşən RƏSULOV*

# Ucalıq zirvəsinə aparan müqəddəs yol

**Vətən torpağımızı qanı ilə boyayan şəhidlərimiz elə bir zirvəyə yüksəliblər ki, onların məskən saldıqları ucalıq müqəddəs məkandır. Azərbaycan bayrağını ucaldan, onun müqəddəsliyini hər şeydən uca tutan şəhidlərimizin uyuduğu məkanlar hər bir azərbaycanlının müqəddəs ziyarətgah yerinə çevrilib. Xalqın haqq səsi, azadlıq səsi olan şəhidlərimizin həyat yolu bir şeirdir, nağıldır, dastandır ki, bu yazıları - qəhrəmanlıq nümunələrini yazdıran onların müqəddəs əməlləridir. Can verib torpağı azad etməkdən müqəddəs əməl, yol varmı, görəsən?**

Bir şəhid anası ilə söhbətə başlamaq, onun ocağında böyüyən övladının kimliyini, insani keyfiyyətlərini öyrənmək çox çətindir. Saçları ağırmış, gözündə niskil, qəlbində kədər daşıyan bir ananın söz mücrüsündən gələn sözlər insanı heyrətləndirir. Qəribədir, iki dünya yaşayır ananın vücudunda, özündə, əməlində: bir dünyası ömrünə xəzan naxışı vurulmuş, evinin qapısını döymüş soyuq ruzigardan donan, digər dünyası əyninə qanından libas geyinib, düşmənə hünər göstərən şəhidin məğrur, əyilməz anası. Bu anda bir şeir parçası keçir düşüncəmdən:

*Ay ana, saçını dərddən ağartma,*
*Gəlib gedənlərdən oğlunu sorma.*
*Qara bəxtim deyib, yanma-alışma,*
*Adın tarixlərə yazdı şəhidlər,*
*Haqqın dərgahına qalxdı şəhidlər!*

Bu ana Ülviyyə Abbasovadır. Vətən üçün oğul ərsəyə gətirən ana - Ülviyyə ana. Şəhid Mürşüd Əhmədzadənin anası. Bu gün Mürşüd təkcə Ülviyyə xanımın yox, on milyonluq Azərbaycan xalqının oğludur. Bir evdən boy atan Mürşüd bütün Azərbaycanın övladına çevrildi.



## ERMƏNİDƏN İNTİQAM ALMAQ HİSSİ QƏLBİNDƏN, DÜŞÜNCƏLƏRİNDƏN UZAQ OLMAYIB

Ana deyir ki, oğlu Mürşüd Əhmədzadə 1 aprel 2000-ci ildə Tərtər rayonunun Evoğlu kəndində anadan olub. 2006-2017-ci illərdə Tərtər rayon Evoğlu kənd tam orta məktəbdə təhsil alıb. Uşaqlıqdan ailənin sevimlisi olub. Mərd, çevik oğlan hər kəsin hörmətini qazanmışdı. Ana üçün çətin idi şərəfli ömür yolundan danışmaq. Göz yaşı və qürurla mübarizə aparır ana. Axı danışan anadır. Körpəlikdən son anına qədər olub keçənlər yadına düşür və onu təsirləndirir. Ana deyir ki, oğlu 2018-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tərtər rayon üzrə Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissədə xidmət edib. 2019-cu ildə hərbi xidmətdən təxris olunub. Həyacandan səsi titrəyir. Əsl kişilik məktəbindən keçən oğlunun döyüşkən ruhu sanki onu yaxın gələcəkdə torpaqlarımızın işğaldan azad olunması üçün müharibəyə hazırlayırdı. Hər ötən gün bu tarixi yaxınlaşdırırdı. Uşaqlıqda, məktəb illərində, ata-anasının danışdıqları onda düşmənə nifrət hissi aşılamışdır. Ermənidən intiqam almaq hissi qəlbindən, düşüncələrindən uzaq olmamışdır. Ülviyyə ana onu bildirdi ki, oğlu hər dəfə Bakıya gələndə Şəhidlər xiyabanı ziyarət edirdi və deyirdi ki, onlar bizim, torpağımız uğrunda şəhid oldular. Onların qisasını biz almalıyıq. Qisas qiyamətə qalmadı.

Ülviyyə ana bir gün evində soyuq ruzigarın əsəcəyini düşünsə də övladının azadlıq istəyi, vüqarı qarşısında susdu. Həm də ona görə susdu ki, axı bu torpaq ana vətəndir. Vətəni qorumayan oğul, anasını necə qoruya bilər?! Anadan xeyir-dua aldı. Ana onu da deyib ki, oğul, biz ermənini qarşısında qəddimizi əyə bilmərik. Azərbaycan xalqı həmişə mübarizələr içində olmuş, vüqarı ilə seçilmişdir. Bu söz elə Mürşüdə bəs edərdi. Ülviyyə ana deyir ki, Mürşüd 8 sentyabr 2020-ci ildən xidmətini müddətdən artıq hərbi xidmət qulluqçu olaraq davam etdirirdi. Qorxmadı heç nədən mənim balam, deyir, - ana. Axı Mürşüdüm uşaqlıqdan mərd idi.

Azərbaycan Ordusunun əsgəri olan Mürşüd Əhmədzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində atıcı olaraq iştirak edir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşur. Tezliklə qələbə qazacağımıza inanırdı. Bu ruhu ona verən ordumuzun gücü idi, yaşıdları arasında olan vətənpərvərlik hissinini yüksək olması idi. Mürşüd Əhmədzadə 6 oktyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olur. 20 yaşlı qəhrəmanımız şəhidlik zirvəsinə yüksəlir. Həyatdan doymayan, arzuları yarımçıq qalan Mürşüd şəhid olur. Uzun müddət nəşi neytral zonada qalaraq çıxarıla bilməmişdir. Mürşüd Əhmədzadənin nəşi 27 noyabr 2020-ci ildə neytral zonadan çıxarılaraq doğulduğu Tərtər rayonunun Evoğlu kəndində dəfn edilir.



## "MÜRŞÜDÜM ŞƏHİD OLAN GÜNÜ YOL İLƏ GEDƏNDƏ QERİ-İXTİYARİ OLARAQ HUŞUM GETDİ"

Ana deyir ki, oğlu şəhid olan günü, ona agah olub. Ananı qəhər boğur, amma sözünə davam edir: həmin gün yuxuda gördüm ki, Mürşüdün iki yaşı olar və o, ağaca çıxıb. Oradan mənimlə söhbət edir. Sən demə həmin gün o, şəhidlik zirvəsinə yüksəlibmiş. Ananın yarası qaysaq bağlamayıb. Ana bilmir ağlasın, yoxsa Haqqın dərgahına ucalan oğlunun adı tarix yazan qəhrəman vətən oğulları sırasındadır. Şəhiddir. "6 oktyabr tarixində oğlum Mürşüdün şəhid olan günü yol ilə gedəndə qeri-ixtiyari olaraq huşum getdi və yerə yıxıldım, - deyə ana sözünə davam edir: "Demə, mənə hər şey agah olub. Qonşumuz olan Ceyhun Hacızadə də Vətən müharibəsində şəhid olub. Biz kəndimizdə onların adı yaşasın deyə bulaq tikdirmişik. Mürşüd və Ceyhun bulağı."

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Mürşüd Əhmədzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib. Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Mürşüd Əhmədzadə ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edilib. Daha sonra Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Mürşüd Əhmədzadə ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib. Bu təltiflərin hər biri ana üçün çox əzizdir. Onun oğlu vətən torpağının azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəldi.

## BAŞINI DİK TUT, ANA, BU TORPAĞIN OCAĞI SÖNMƏDİ

Deyirlər, şəhidlər ölmür və onların ömrü dünya qədər sonsuz və əbədidir. Can verib bu torpağı qoruyan şəhidlərimizə borcluyuq. Ona görə ki, açıq səma altında, ad-alovsuz bir torpaqda yaşayırıqsa onlara borcluyuq. 44 günlük Vətən müharibəsində öz əcdadlarından, ata-babalarından qeyrət dərsi alanlar Azərbaycan məmləkətini qorumaq üçün silahlanıb od-alov içində atıldılar. Minlərlə vətən oğlu torpaq müqəddəsliyini hər şeydən uca tutub bu yoldan geri dönmədilər. 30 ilə yaxın zamanda işğalda olan torpaqlarımızın bir gün azad olacağına inanırdılar. İnanırdılar ki, bu ağlı-qaralı dünyada bir gün ədalət qalib gələcək və haqq yolunda vuruşmağı çoxdan gözləyirdilər.

Ana, başını dik tut, şəhidlər qoymadılar bu torpağın ocağı sönsün. Bu gün bütün millətimiz başını uca tutub. Bayrağımız da qürurla dalğalanır. Şəhid qanı ilə suvarılmış torpaqlara sancılan üç rəngli BAYRAĞIMIZ.

Bu gün vətən torpağının azadlığı yolunda canından keçmiş şəhidlərimiz xalq qəhrəmanına çevrilib. Düşmənə hünər göstərən, bax torpaq uğrunda belə qan tökərlər, - deyən vətənpərvər oğullarımızın döyüş yolu hünər dastanına çevrilib. Şəhidimizin qanı yerdə qalmadı, torpaqlarımız erməni təcavüzkarlarının işğalından azad olundu. İndi Mürşüd və minlərlə şəhidimizin ruhu şaddır. Allah rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Bilən olsa, desin...

Bəlkə də 10 gün olar, Bakı şəhəri Xətai rayonu, Fəzail Bayramov küçəsində, Bakı Əyləncə Mərkəzinin yaxınlığında, əhalinin sıx hərəkəti olan küçədə səkinin bir hissəsində heç kim bilmir, nə üçün, niyə, hansı səbəbdən söküntü işləri aparılıb. Səkidəki asfalt səliqəli şəkildə kəsilib, bir kənara yığılıb, təmir olunacaq ərazi ətrafdan təcrid olunub. Çox gözəl, təcrid olunub ki, buradan keçən uşaq-böyüyün ayağına dolaşmasın. İnsanları bundan artıq ta necə düşünmək olar ki? Lakin maraqlı digər bir məsələ də var, kəsilən, artıq tullantıya çevrilən asfalt parçaları aparılmayıb, elə ərazi tullantı qarışıq lentə alınıb.

Həyatda hər gün onlarla yeniliklərlə qarşılaşırıq. Ona görə də sakinlər tullantının burada qalmasına da bir o qədər üzülməyib. Düşünüblər ki, yəqin tullantıya yeni həyat veriləcək, ondan təmir üçün istifadə olunacaq. Deyiblər ki, gözləyək, görək necə olur.

Günlərdir ki, həmin ərazidən bir təhər keçirlər, gedirlər, gəlirlər. Böyük həsrətlə bu gün, ya sabah gələrlər, düzəldərlər deyib, gözləyirlər. Gözləmək də belə olub ki, ötən həftə əsən güclü külək həmin təcrid olunmuş əraziyə çəkilmiş lentləri da qırıb dağıdıb, bir-birinə dolaşdırıb. İndi ərazinin ətrafdan heç bir təcridi də qalmayıb. Ortalıqda olan darısqal səki, bu səkidə asfaltı kəsilmiş hissə və kiçik tullantı təpəciyidir.

Küçənin sakinləri isə buradan hər gün dəfələrlə keçmək məcburiyyətindədirlər. Çünki yaxınlıqda alternativ səki yoxdur. Bu sahəyə yaxınlaşanda uşağın əlindən möhkəmcə yapışmaqdan, adam çox olanda dayanıb gözləməkdən, bir də kiminsə gəlib bu işi başa çatdırmasına ümid bağlamaqdan başqa çarə yoxdur.

Maraqlıdır, əgər bu təmirdirsə, nə üçün səkinin bir o hissəsindədir, hansı ki, səkinin ümumi vəziyyəti heç də xoşagəlim deyil. Yox, əgər ayrı səbəbdəndirsə, hə, bu, başqa məsələ... Lakin sakinlərin də haqqı var səkidə nə baş verdiyindən xəbərdar olmağa, bunu hansı təşkilatın etdiyini bilməyə və sakinin nə vaxt düzələcəyini heç olmasa təxmin etməyə.

Bu günü nəzərə almasaq, sabahla-cümə ilə həftənin tamam olmasına cəmi bir gün qalır. Sonra şənbə, bazar və iki gün Ramazan bayramı. Sakinlərinsə ümidi sabahadır, yəni cümə gününə. Bu səki təmir olundu, olundu, olunmadısa, qaldı Ramazan bayramından sonraya, yəni may ayına. Ona da ki, təvəkkül Allaha.

Bu səkidən nə üçün bir parça qoparıldığını, tullantının yerindəcə qaldığını, nə vaxt təmirin aparılmasının reallaşacağını, xüsusilə də hansı təşkilatın bu işə cavabdeh olduğunu bilən varsa, desin.



Çünki həmin küçədə yaşayan sakinlərin gözü yolda, qulaqları səsdədir.

***Mətanət MƏMMƏDOVA***

# “Radikal müxalifət başqasını aşağılayaraq üzdə qalmaq taktikasından əl çəkməyib”

**“İndi baş verənlər onu sübut edir ki, digər müxalif qüvvələrlə yola getməyən radikal müxalifət təmsilçilərinin özləri arasında da qarşıdurma var”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq Yusif Bağırzadə Tofiq Yaqublunun səs yazısında səsləndirdiyi fikirlərə münasibət bildirərkən deyib. Politoloq qeyd edib ki, baş verənlər radikal müxalifətin illərdir sağalmayan xəstəliklərindən biridir.**

”Daxili çəkişmələr və xəyanətlər, üzdə dost olub əslində isə hər an bir-birinə badalaq gəlməyə hazır olan müxalifət funksionerləri növbəti dəfə cəmiyyətə əsl simalarını nümayiş etdiriblər. Baş verənlər heç şübhəsiz ki, Azərbaycanda radikal müxalifətin acınacaqlı imici və vəziyyətini ortaya qoyur. Ümumiyyətlə qeyd etmək lazımdır ki, radikal müxalifət rasional düşüncəli və kreativ yanaşma tətbiq edən institut kimi çıxış edə bilmədiyindən, ancaq korporativ maraqlar ətrafında birləşmiş marginal qruplar və ya siyasi dərnəklər təsirini bağışlayır. Onların müasir siyasi metodlara, sivil mübarizə taktikasına istinad etməməsi və bütün fəaliyyətinin əsasında milli maraqların deyil, qrup mənafeyinin durması radikal müxalifətin konseptual olaraq, demokratik dəyərlərin və ideyaların daşayıcısı olmadığını isbatlayır. Əlbəttə ki, müxalifət institutunun əsas fəlsəfəsi dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi olsa da, təəssüflər olsun ki, Azərbaycanda bəzi müxalifət təşkilatları üçün bu prinsiplər yaddır.



Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Tofiq Yaqublunun səs yazısından bəlli olur ki, onun Əli Kərimli və Gültəkin Hacıbəyli ilə bağlı dedikləri bir növ Musavat partiyası haqqında deyilmiş fikirlərə cavab xarakterli olub. Başqa sözlə, bu onu sübut edir ki, radikal müxalifət hələ də başqasını aşağılayaraq özünün üzdə qalmaq taktikasından əl çəkməyib. Digər bir tərəfdən də görüntü ondan ibarətdir ki, konstruktiv müxalifəti hədəfə alan bəyanatlardan yorulan bu müxalif kəsim artıq hədəf olaraq bir-birini seçib. Başqalarını aşağılamaq Azərbaycanın radikal müxalifətini dünya müxalifətçilik institutlarından fərqləndirən ən mühüm cəhətdir desəm yəqin ki, səhv etmərəm. Fərqli mövqe nümayiş etdirənləri, siyasi münasibətlərə konstruktiv yanaşma sərgiləyənləri satqın adlandıranlar indi faktiki olaraq bir-birini hədəfə alan bəyanatlar səsləndirilər.

Əslinə baxsaq, radikal müxalifət daxilindən AXCP sədrinin ünvanına bu və ya digər fikirlərin səsləndirilməsi artıq cəmiyyətdə adi hal kimi qəbul edilir. Çünki onların bir-birilərinin arxasınca danışmalarına alışmışıq. Bu düşərgədə o qədər köhnə problemlər, keçmişdə bir-birlərinə qazdıqları quyular var ki, bundan sonra nə qədər çalışsalar da öz xislətlərindən yaxa qurtara bilməyəcəklər. Onlar üçün nə sadəqət, nə də ümumi dəyərlər anlayışı yoxdur. Əgər olsaydı bir müddət bundan əvvəl Elçibəyin oğlunun onları öz toy mərasiminə dəvət etməməsinə görə sosial şəbəkələrdə lider dedikləri insanı, Əbülfəz Elçibəyi təhqir edən kampaniyaya rəvac verməzdilər. Ən təəccüblüsü də odur ki, həmin vaxt aparılan kampaniyanın dayandırılması üçün radikal müxalifət liderlərindən hər hansı biri çağırış etmədi. Halbuki ən azından öz partiyalarının ilk qurucusunun ruhunun şad olması naminə belə bir müraciət edə bilərdilər. Lakin belə bir müraciət edilmədi və faktiki olaraq iyrənc söyüşlərin davam etdirilməsinə rəvac verildi.

Yeri gəlmişkən, onu da xatırlatmaq yerinə düşər ki, radikal müxalifət daxilindəki bu oxşar problemləri elə səs yazısında Kərimli ilə bərabər adı hallanan Gültəkin Hacıbəyli də dəfələrlə üzə çıxarıb. Milli Şuranın təxminən bir il əvvəl videokonfrans formatında keçirilən iclasında Gültəkin Hacıbəyli REAL partiyasının sədri İlqar Məmmədovu lağlağı obyektinə çevirmişdi. Bununla da kifayətlənməyərək, Müsavat Partiyasını da REAL kimi rüsvayçı aqibətin gözlədiyini bildirmişdi.

İndi baş verənlər isə bir daha onu sübut edir ki, artıq digər müxalif qüvvələrlə yola getməyən radikal müxalifət təmsilçilərinin özləri arasında da qarşıdurma var və onlar hər fürsətdə bir-birinə qarşı kampaniya aparmaqdan çəkinmirlər. Bu qarşıdurma isə sıravi üzvlərin də sosial şəbəkələrdə bir-birlərini təhqir etməsinə rəvac verir.

Bütün sadlananlar hazırkı vəziyyətdə radikal müxalifətin sivil müxalifət institutu kimi vəzifəsini yerinə yetirə bilmədiyini göstərir və cəmiyyətə parlaq ideya təqdim etməyi bacarmayan radikal müxalifətin Azərbaycana uğur gətirmək iqtidarında olmadığını sübut edir”, deyə politoloq Yusif Bağırzadə bildirib.

***İnam Hacıyev***

**TƏRS BAXIŞ+ÖZƏL**

# Nə tez “vicdana” gəldin, Arif Hacılı, bəs Əli Kərimli hanı?

***Sosial şəbəkədə Şuşadan boy-boy fotolar paylaşan, guya Şuşa səfərindən ”vəcdə” gəldiyini süni təbəssümü ilə zorla ictimai rəyə sırıyan müsavatçı başqan, əslində, özünüifşa vasitəsini işə salıb - AXCP sədri isə görünür, hələ də düşünür...***

Məlum olub ki, Müsavat partiyasının başqanı Arif Hacılı və müavinləri Şuşaya səfər ediblər. Əslində, bu, onların Azərbaycan vətəndaşları olaraq haqlarıdır, amma..!

Amma bu haqqından zamanında istifadə edə bilməyən Arif Hacılının bundan əvvəl məhz Prezident Administrasiyasının işğaldan azad edilmiş ərazilərimizə dəfələrlə (!) siyasi partiyalar üçün təşkil etdikləri səfərlərinə qatılmaması suallar doğurur və bənzər suallar kifayət qədərdir. Elə müsavatçıların gözünə axecepeçiləri də qatmaq pis olmazdı məncə...

Nəhayət ki, sosial şəbəkədə Şuşadan boy-boy fotolar paylaşan, guya Şuşa səfərindən ”vəcdə” gəldiyini süni təbəssümü ilə zorla ictimai rəyə sırıyan müsavatçı başqan, əslində, özünüifşa vasitəsini işə salıb. Bəs nədir həmin özünüifşa məsələləri?

**Erməni KİV-ləri və sosial şəbəkələri Azərbaycan siyasi partiyalarının rəhbərlərinin imza atdıqları dəstək müraciətində Müsavat başqanı Arif Hacılının və AXCP sədri Əli Kərimlinin adlarının olmadığını xüsusi olaraq, təmtəraqla yazmışdılar, bundan artıq düşmənçilik mövqeyi ola bilərdimi?**

Prezident Administrasiyasının siyasi partiyalar üçün təşkil etdiyi özəl səfərlərdən imtina edən həmin Arif o Arifdir ki, 44 günlük müharibədə ölkədə fəaliyyət göstərən müxalifət partiyaları daxil - bütün siyasi təşkilatların Ali Baş Komandana dəstək müraciətlərinə imza atmamışdı. O, bununla müharibə dövründə informasiya müharibəsi aparan düşmən cəbhəsinə - məhz Azərbaycan ordusuna, əsgərinə, zabitinə, nəhayət, dövlətinə və xalqına XƏYANƏT etməklə işləmişdi. Necə? Onu da deyim! Erməni KİV-ləri və sosial şəbəkələri Azərbaycan siyasi partiyalarının rəhbərlərinin imza atdıqları müraciətdə Müsavat başqanı Arif Hacılının və AXCP sədri Əli Kərimlinin adlarının olmadığını xüsusi olaraq, təmtəraqla yazmışdılar, məgər bundan artıq düşmənçilik mövqeyi ola bilərdimi? Beləliklə, onlar həmin məsələni öz şəxsi mnfəətlərinə, uğursuz siyasi maraqlarına, səmərələrinə və Azərbaycanın apardığı haqq mübarizəsinə qarşı istifadə etmişdilər. Bundan böyük xəyanət ola bilərdimi?!

## Düşmənimin dostu mənim düşmənimdir!

Əslində, belə bir xəyanətin daha biri də yaşanmışdı! Vətən müharibəsindən sonra




Azərbaycanla Türkiyə arasında yüksək səviyyədə və dünyaya səs salan Müttəfiqlik Bəyannaməsi imzalandı və iki qardaş ölkənin bir-birinə əbədi bağlılıqları rəsmiləşdi. Həmin ərəfədə də eynilə Azərbaycanda mövcud olan bütün siyasi partiyalar - istər iqtidaryönlü, istərsə də müxalifətyönlü siyasi təşkilatlar dəstək bəyanatını imzaladılar. Və yenə də həmin bəyanatda nə Müsavat partiyasının, nə ”Milli” (əslində zilli - R.R.) Şura”nın, nə də AXCP-nin adına rast gəlinmədi, etiraz etdilər, hətta belə desək, iki qardaş ölkənin bir araya gəlməsini istəməyən xarici qüvvələrin maraqlarından çıxış etdilər. Misal üçün, ilk olaraq Ermənistanın, ardınca isə bu ölkəyə 44 günlük müharibə zamanı dəstək göstərən Yunanıstanın, Fransanın maraqları həmin faktorla paralellik təşkil etdi. İndi bundan sonra yüz dəfə iddia etsinlər ki, xeyr, belə deyil, mümkün deyil və s. Amma fakt elə fakt olaraq qalır, düşmənimin dostu mənim düşmənimdir - müsavatçılar axecepeçilərlə birlikdə Bakı-Ankara müttəfiqliyinə qarşı çıxdılar, belə olmasa idi imzaları həmin sənəddə yer alardı. amma yoxdur!

## Sizin Şuşada nə azarınız var???!!!

Bütün bunlardan sonra ölkə müxalifətinin baş klounlarından biri qismində çıxış edən Arif Hacılının və ətrafındakı polyaçi truppasının Şuşaya hansı üzlə gedib və hansı sifətlə fotolar paylaşmaları həm gülünc, həm də anlamsız təsir bağışlayır. Yəni siz həm müharibə dövründə, həm də müharibədən sonra ümummilli, ümumdövlətçilik maraqlarını əks etdirən çox mühüm sənədlərdən yaxanızı kənara çəkən xainlərsiniz və bu gün Şuşada nə azarınız var???!!! Heyf ki, Şuşa torpağı dil açıb-danşa bilmir, yoxsa özü qovardı sizi oralardan!

Şuşada igid balalarımızın qanları axarkən sizlər o qanları heçə sayaraq dövlətin maraqlarına qarşı çıxış etdiniz, Şuşa qalasına Azərbaycanın müqəddəs üçrəngli bayrağı sancılarkən siz o bayrağın dalğalanmasına qısqanclıqla baxdınız, çünki içinizdəki o dəhşətli, murdar xəbislik və idbar hisslərinīz sizin əsl vətəndaş, əsl vətənpərvər olmaq şanslarınızı sıfıra endirib. Ona görə də təlxəkcəsinə fotolar paylaşaraq ”Biz Şuşadayıq” statusları yazmağınız sizi sıfır həddindən o tərəfə qaldırmır, əksinə alçaldır. Alçaqlıq, xainlik, xislət, vicdansızlıq və qərəz isə necə deyərlər, düppədüz, özü də ”bezrazmer” boyunuza ölçülüb. Hə, o bayrağı da tutanda ən azından içiniz sızlasın, əgər bir qram da olsa vətənpərvərlik hissiniz qalıbsa, amma qalıbmı...??? Hm! Hələ bir Şuşaya gedənlərə baxın daa..!

***Rövşən RƏSULOV***

***P.S. Maraqlıdır, Arif Hacılı, bəs Əli Kərimli haradadır, nəsə axecepeçilər və zilli şuraçılar - Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu və sairləri görünmürlər yan-yörələrdə?***

# Pensiyası az olanların NƏZƏRİNƏ: Əlavə müavinət təyin olunacaq

Azərbaycanda şəxsə düşən pensiyanın məbləği onun aldığı, yaxud almalı olduğu sosial müavinətin məbləğindən az olacağı təqdirdə ona müavinət təyin olunacaq. Sfera.az xəbər verir ki, bununla bağlı ”Sosial müavinətlər haqqında” qanuna dəyişiklik layihəsi parlamentin dünən keçirilən iclasında I oxunuşda müzakirəyə çıxarılıb.

Qanunun 7-ci maddəsində dövlət qulluqçularına ömürlük müavinət, yaşa görə müavinət, əlilliyə görə müavinət, ailə başçısını itirməyə görə müavinət (7.0.5.1-ci maddə istisna olmaqla), müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinətin təyinatı şərti kimi şəxsin əmək pensiyası hüququnun olmaması göstərilir.

Ailə başçısının kifayət qədər sosial sığorta stajının olmaması səbəbindən ailə üzvünün ailə başçısını itirməyə görə pensiya hüququ yarandığı halda həmin müavinətin ödənişi dayandırılır. Lakin sözügedən əmək pensiyasının ailə üzvünə düşən hissəsi ona təyin edilmiş, yaxud təyin ediləcək sosial müavinətin məbləğindən aşağı olduğu təqdirdə, onun maddi təminatının aşağı düşməsi ilə nəticələnir. Həmçinin əmək pensiyası təyinatının məqsədinin şəxsin, yaxud ailənin itirilmiş gəlirlərinin kompensasiyası olduğunu nəzərə alaraq, bu halda nəinki ailənin itirilmiş gəlirləri kompensasiya olunmur, əksinə azalır.

Təklif edilən dəyişikliklə şəxsə düşən pensiyanın məbləği onun aldığı, yaxud almalı olduğu sosial müavinətin məbləğindən az olacağı təqdirdə ona müavinət təyin olunacaq. Qanuna dəyişiklik layihəsi səsvermə çıxarılaraq I oxunuşda qəbul edilib.



# Ümumdünya Ticarət Təşkilatına üzvlük Azərbaycanın maraqlarına cavab verirmi?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*

**Ümumdünya Ticarət Təşkilatı (ÜTT) dünyada ticarət əməliyyatlarının birgə prinsiplər üzərində həyata keçirilməsini təmin edən beynəlxalq təşkilatdır. Azərbaycanın bu təşkilata daxil deyil və əksər mütəxəssislər hesab edirlər ki, bu haqlı mövqedir. Bunun da səbəbləri var-ÜTT-yə daxil olmaq heç də bütün ölkələr üçün yaxşı perspektiv vəd etmir. Bu yazıda bu prosesdən danışacağıq.**

1947-ci ildən bəri "Rüsumlar və Ticarət üzrə Baş Saziş"in iclaslarında verilən qərarlar dünya ticarətindəki sərbəstliyi məhdudlaşdıran maneələrin aradan qaldırılmasına yönəlmişdi. Beynəlxalq ticarət münasibətlərini tənzimləmək məqsədilə 1 yanvar 1995-ci ildə Ümumdünya Ticarət Təşkilatı quruldu. ÜTT-nin mənzil qərargahı Cenevrədə yerləşir. Təşkilat müəyyənləşdirdiyi qayda və normalar əsasında dünya ticarətinin 95 faizini tənzimləyir. Hazırda təşkilatın 160 üzvü var. 30 ölkə isə təşkilatda müşahidəçi qismində iştirak edir. Azərbaycan da təşkilatda müşahidəçi səslə iştirak edir.



ÜTT-yə üzv olmaq istəyən ölkələrin qarşısına mövcud sazişlərin icrası, qanunvericilik bazasının yeniləşdirilməsi və ticarətin liberallaşdırılması üçün tarif və qeyri-tarif maneələrinin aradan qaldırılması tələbləri qoyulur. Bu təşkilata üzvlük məsələsinin mənfi və müsbət tərəflərləri var.

Təşkilat hər hansısa bir ölkənin standartlarını qəbul etməyi tələb etmir. ÜTT-yə qəbul olmaq istəyən ölkə standartlaşdırma prosesini liberallaşdırmalıdır. ÜTT-yə üzv olmaq bütün ölkələrə eyni hüquqları verir. Belədə təşkilatın üzvü olan ölkələrdə əmtəə və xidmət üzrə qiymətlər eyni olmalıdır.

Əksər ekspertlər bu təşkilatın ölkəmiz üçün sərfəli olmadığını düşünür. Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov ölkəmizin ÜTT-yə üzv olmasının tərəfdarı deyil. O hesab edir ki, ticarətin, əmtəə mübadiləsinin son ünvanı istehlakçı olduğundan ilk növbədə onun hüquqları qorunmalıdır. Sözügedən təşkilat isə istehlakçı hüququnu qorumağı təmin edə bilmir. Yəni, bu təşkilatın nizamnaməsində istehlakçı siyasəti yoxdur.

ÜTT-yə qəbul olunmağın mənfi cəhətlərindən biri də odur ki, keyfiyyət və qiymətindən asılı olmayaraq bütün məhsulların üzv ölkələrə ixracı həyata keçirilməlidir. Bu o deməkdir ki, ölkəyə nə qədər mal daxil olursa olsun, qəbul edilməlidir. Bu da təbii ki, yerli istehsalın səviyyəsini aşağı sala bilər. Bu qənaətdə olan iqtisadçılar, əsasən aşağıdakı arqumentləri gətirirlər:

1. Ticarətin liberallaşdırılması qoruyucu tədbirlərin səmərəli olmadığı halda daxili bazarda daha ucuz olan xarici malların yer almasına şərait yaranacaq;

2. Qoruyucu tədbirlərin tədbiq olunub-olunmamasından asılı olmayaraq, daxili bazarda daha güclü və tanınmış xarici şirkətlər üstünlük qazanacaqlar;

3. Təqdim ediləcək keçid dövrü ərzində rəqabətədavamlı və ixracyönümlü malların istehsalı təşkil edilməzsə, sonrakı mərhələlərdə bu çox çətin olacaq;

4. Xarici ticarətdə kəmiyyət məhdudiyyətləri aradan qaldırılacaq;

5. Xidmət sahəsində daha ucuz və aşağı keyfiyyətli xidmət təchizatçıları yer tutacaq;

6. Bir sıra subsidiya növlərinin tədbiq olunması qeyri-mümkün olacaq və s.



Beynəlxalq iqtisadi araşdırma mərkəzlərinin proqnozlarına görə, Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə birlikdə yaxın gələcəkdə beynəlxalq iqtisadi münasibətlərin inkişaf etdirilməsində ən əhəmiyyətli 3 dünya təşkilatından biri olacaqdır. Azərbaycan 1992-ci ildən BVF və DB-nin üzvü olsa da, ÜTT-yə müşahidəçi statusu ilə qatılmaqdadır.

Bu təşkilatların isə qərb dövlətlərinin və korporasiyalarının mənafelərini qoruması sirr deyil. Bu səbəbdən bir çox ölkələr təşkilata daxil olduqdan sonra yerli istehsalı, sənayesi rəqabətə davam gətirə bilməyərək sıradan çıxır və o ölkələr ucuz xammal ölkəsinə çevrilirlər.

ÜTT üzv ölkələrdə GMO məhsullara qadağanın götürülməsini tələ edir ki, bu da həmin ölkələrin öz toxum fopndunu itirməsinə, böyük transkorporasiyalardan asılı düşməsinə səbəb olur. Çünki gen modifikasiyasi mərkəzləri, GMO toxum ixracı təxminən 10 qərb şirkətinin əlindədir. Beləliklə, ölkə aqrar sektoruna nəzarət imkanlarını itirir və iqtisadi təhlükəsizliyi təhlükə altına düşür.

Moldova və Qırğızıstanın təcrübəsi göstərdi ki, dünya bazarında rəqabətədavamlı məhsulla çıxa bilməyən ölkələr üçün bu təşkilata daxil olmaq ölkənin milli iqtisadiyyatına ciddi zərbə vurur. Üzvlükdən sonra gömrükdə protektionist siyasət yürütmək mümkün olmur və yerli istehsal müdafiəsiz vəziyyətdə qalır.

Hər bir ölkə spesifik xüsusiyyətlərə malikdir və öz milli maraqları var. Məsələn, bəzən ölkələrdə iqlim şəraitindən, təbii fəlakətlərdən və ya digər səbəblərdən dolayı müəyyən sahələrdə böhran vəziyyəti yaranır. Hər hansı məhsulun qıtlığı zamanı ölkələr digər dövlətlərdən sərfəli qiymətə bu məhsulu ixrac edə bilirlər. Yəni, tutaq ki, Hindistanda taxıl qıtlığı yaranıb. Rusiya isə öz ehtiyaclarından xeyli artıq taxıl istehsal edib və bunu vaxtında sata bilməyib. Növbəti taxıl biçininədək isə taxıl terminalları boşalmalıdır və əvvəlki məhsul güzəştli qiymətlərlə ixrac olunmalıdır. Bu zaman Hindistan həmin taxılı aşağı qiymətə alıb vəziyyətdən çıxa bilər. Amma ÜTT-yə üzvlükdən sonra belə hallarda vəziyyət çətinləşir və həmin ölkələrə anti-dempinq cəzası tətbiq oluna bilər. Yəni, istənilən vaxt maraqlı qüvvələr tərəfindən istənilən ölkədə süni qıtlıq yaradıla bilər və bu zaman da ÜTT öz şərtlərini diktə edə bilər.

Mənfi cəhətlərdən biri də odur ki, keyfiyyət və qiymətindən asılı olmayaraq bütün məhsulların üzv ölkələrə ixracı həyata keçirilməlidir. Bu o deməkdir ki, ölkəyə nə qədər mal daxil olursa olsun, qəbul edilməlidir. Bu da təbii ki, yerli istehsalın səviyyəsini aşağı salacaq. Bazar keyfiyyətsiz və ucuz xarici mallarla dolacaq. Bundan başqa, idxal və ixrac rüsumlarından büdcəyə daxil olmalar azalacaq. Bir məsələ də var ki, üzvlükdən sonra qiymətləri biz yox, ÜTT müəyyənləşdirəcək. Bu da təhlükəli faktordur. ÜTT-yə üzvlükdən sonra vəziyyəti pisləşən ölkələrin sayı daha çoxdur.

Hazırda dünya bazarında enerji daşıyıcılarının qiymətləri rekord həddə çatıb. Bu da xarici ölkələrdə istehsal olunan məhsulların qiymətlərinə təsir edəcək. Nəticədə ölkəyə idxal olunan malların qiyməti artacaq.

Əslində qiymətlərin liberallaşması elə də arzuolunan məqam deyil. Məsələn, yanacağın, kommunal xidmətlərin, sərnişin nəqliyyatının qiymətinin liberallaşdırılması onların qiymətinin azı 2 dəfə artmasına səbəb ola bilər.

90-cı illərin əvvəlində dövlət qəfildən qiymətlərin liberallaşdığını elan etmişdi, axırı nə oldu? Bahalaşma və inflyasiya baş alıb getdi, əhalinin alıcılıq qabiliyyəti son dərəcə aşağı düşdü. Yalnız uzun müddətdən sonra bu proses nəzarət altına alına bildi.

Qısası, ÜTT-yə üzvlük ölkəmizin maraq və mənafelərinə uyğun deyil. Bu, daha çox Amerika, Çin, Rusiya, Britaniya, Fransa, Almaniya, Yaponiya kimi iri istehsalçı ölkələrə sərf edir, bir də böyük transmilli korporasiyalara. Kiçik ölkələrdəki istehsalçılar bu nəhənglərlə həm istehsal həcmi, həm texnoloji, həm də qiymət cəhətdən rəqabət apara bilməyəcək və sıradan çıxacaq. Belə ölkələrin iqtisadiyyatını, bazarını böyük körporasoyalar ələ keçirir, ölkə borclanmağa davam edir və asılı vəziyyətə düşür.

***Elçin Bayramlı***



SON SƏHİFƏ
SƏS
29 aprel
2022-ci il

# Kofeni nə zaman içmək lazımdır?

**Tibb elmləri namizədi, endokrinoloq Zuxra Pavlova kofe içmək üçün ən uyğun vaxtın nə zaman olduğunu açıqlayıb. O, öz ”Telegram” kanalında bu gümrahlandıran içkini bilinənin əksinə olaraq səhərlər içməyin doğru olmadığını qeyd edib. Belə ki, bu, yuxululuq və enerji itkisinə səbəb ola bilər.**

Həkim vurğulayıb ki, səhərə kofe ilə başlamaq düzgün deyil. Onun fikrincə, insan səhərlər özünü yorğun hiss edirsə və bu yorğunluğu kofenin aradan götürə biləcəyinə inanırsa, ilk öncə bu halın hansı xəstəliklə bağlı ola biləcəyini müəyyən etmək lazımdır. Məsələn, səhərlər tez-tez təkrarlanan yorğunluq halları, ekspertin fikrincə, gündəlik rejimin düzgün nizamlanmaması, xroniki yuxusuzluq və ya gecə həddindən artıq yemək yeyilməsi ilə bağlı ola bilər. Mütəxəssis xəbərdarlıq edib ki, əsas səbəbi müəyyənləşdirmək əvəzinə yuxudan oyandıqdan dərhal sonra kofe içmək endokrin və sinir sistemini çökdürə bilər.

Pavlova bədəni məşqlərlə və ya qısa bir gəzinti ilə canlandırmağı, ətirli kofeni isə günortadan sonra - bədənə əlavə enerji mənbəyi lazım olduqda içməyi tövsiyə edir.

***Mənbə: Lenta.ru***



# ”Barselona”nın Levandovski planı açıqlandı!



***“Barselona”nın direktoru Mateu Alemani ”Bavariya”nın futbolçusu Robert Levandovskinin meneceri ilə görüşüb. Bu barədə sport.es məlumat yayıb. Alemani Levandovskinin meneceri ilə Kataloniya klubunun polşalı hücumçuya təklif etdiyi müqavilə şərtlərini müzakirə edib.***

”Barselona” Levandovski ilə iki mövsümlük müqavilə imzalamaq istəyir. Həmçinin sözləşmənin detallarında bu müqaviləni qarşılıqlı razılaşma əsasında 1 il uzada biləcəkləri qeyd olunur. İspaniya təmsilçisi 33 yaşlı oyunçunun müqaviləsinin müddətinin başa çatmasında 1 il qalmış komandadan ayrılma bilməsi üçün ”Bavariya”ya 35 milyon avro ödəməyə hazırdır. Qeyd edək ki,Levandovski 2014-cü ildən ”Bavariya”da oynayır. O, bu mövsüm bütün turnirlərdə 43 matçda 48 qol vurub və 6 qolun ötürməsini verib. Levandovskinin klubla müqaviləsi 2023-cü ilin yayında başa çatacaq.

# ŞOK OLAY: 49 yaşlı qadın öz pişiyi ilə evlənib!

**İngiltərədə yaşayan qadın mənzil sahibinin ev heyvanı qadağasına müqavimət göstərmək üçün ”Hindistan” adlı pişiyi ilə evlənib. SİA xarici mətbuata istinadən xəbər verir ki, 49 yaşlı Deborah Hodqe əvvəllər başqa ev sahibləri üzündən pişiklərindən imtina etməli olub. Pişiyini itirmək qorxusunun öhdəsindən gələ bilməyən iki uşaq anası pişiyinin öz uşaqlarından sonra ən vacib şey olduğunu deyib.**

Deborah, ”Hindistanla evlənməklə, mənim bütün gələcək ev sahiblərimin bilməsi lazımdır ki, biz birik və heç bir halda ayrıla bilməyəcəyik. Çünki o, mənim uşağım kimidir” deyə bildirib.

***Ləman Əlizadə***



## ELAN

Bank ”BTB” Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının illik ümumi yığıncağı 31.05.2022-ci il tarixində saat 11:00-da Bankın Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, 27 ünvanında yerləşən Baş ofisində keçiriləcəkdir. Səhmdarlar yığıncağın gündəliyi ilə Bankın Baş ofisində tanış ola bilərlər.

# Kimlərə səhər yumurta yemək olmaz?



”Ümumiyyətlə, yumurta çox faydalı qidadır və hər kəsin qida rasionunda olmalıdır. Lakin müəyyən kateqoriya insan var ki, onlara hər gün yumurta yemək olmaz. Bu xüsusilə ödündə problem olanlara aiddir”. Bu sözləri SİA-ya açıqlamasında həkim dietoloq Leyla Zülfüqarlı deyib. Onun sözlərinə görə, bir də ciddi böyrək çatışmazlığından əziyyət çəkənlərə yumurta olmaz: ”Ödündə problem olanlara 2 həftədə 1 dəfə yumurta qəbul edə bilər. Böyrək xəstəliyindən əziyyət çəkənlərə isə ümumiyyətlə yumurta qadağandır”.

Dietoloq sözlərinə belə davam edib: ”Yerdə qalan uşaq və digər insanlara isə yumurta ən faydalı qidadır”.

***Ayşən Vəli***

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**